www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-9 oktyabr 2016-cı il Şənbə № 222 (6543) Qiymıəti 60 qəpik

**Xəbər**

## Azərbaycanda illik inflyasiya 11 faizi ötüb - rəsmi açıqlama

yazısı səh.2-də

**Gündəm**

### Amerika və Rusiyadan Qarabağ etirafları - işğalçını kim ram edəcək?



ABŞ dövlət katibinin və Putinin etibarlı şəxsinin bədbin bəyanatları müharibə riskinin artdığının anonsudur

yazısı səh.11-də

### Müstəqilliyimizin 25 illiyinə həsr olunan konfrans keçirildi

yazısı səh.12-də

### Bu gün Gürcüstanda kritik parlament seçkiləridir

yazısı səh.9-da

### Məlahət İbrahimqızı onu təhqir edənlərə sərt reaksiya verdi: "Kimsə əxlaqsız fikirlər səsləndirirsə.."

yazısı səh.4-də

### Oliqarx Çindən "Çovdarov işi"ndə adı keçən iş adamının məhkəməsinə gəldi

yazısı səh.6-da

### Azyaşlı qızları zorlayan əcnəbi baş məşqçi Azərbaycan millisindən qovulacaqmı...

yazısı səh.14-də

### "MTN işi"nə görə tutulan rabitəçi azadlığa necə çıxıb?

yazısı səh.6-da

### Suriyada supergüclərin nüfuz savaşı gedir

yazısı səh.10-da

### İllərin əfsanəsi yalan çıxdı - heyvan mənşəli yağlar faydalı imiş...

yazısı səh.15-də

### Qubada dəhşətli avtoqəza; ata 10 yaşlı oğlunun gözü qarşısında öldü

yazısı səh.14-də

### Özünü yandıran sürücünün 43 min manat cəriməsi və qaziliyi...

yazısı səh.15-də

## Təcavüzkara ucuz silah, Azərbaycana ucuz təsəlli?

# KREMLDƏN BAKIYA YENİ ŞİFRƏLİ MESAJ - "RUS NATO"SUNA GİRSƏNİZ..."

Putinin müşaviri Azərbaycanı KTMT-yə səslədi; Bakının mövqeyi isə bəlli - "Öncə ərazilər!.."; eyni gündə Rusiya prezidenti Ermənistanla ortaq hava hücumundan müdafiə sistemi haqda sənədi təsdiq üçün Dumaya göndərdi - təsadüf?..




yazısı səh.8-də

## Abort tullantılarından gənclik cövhəri hazırlanır - sensasion araşdırma

Azərbaycanda kök hüceyrə transplantologiyası haqda qanun qəbul edilə bilər; varlılar əbədiyaşar olacaq, məzarlıqlarda yalnız kasıblar üçün qəbirlər qazılacaq...

yazısı səh.3-də



*Ali Ağaoğlu:*

### "Bir günün içində vətəndaş istiqrazı nağd pula çevirə bilər"

yazısı səh.5-də



### Pənah Hüseyn Elçibəyin 23 il gizli qalan müraciətinin detallarını açıqladı

yazısı səh.4-də



*Əli Məsimli:*

### "Azərbaycana şok terapiyası yox, şoksuz terapiya lazımdır"

yazısı səh.7-də



# Prezidentdən sensasion Qarabağ açıqlaması

## "Bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin"

**"İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi". Axar.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda deyib.**

Prezidentin sözlərinə görə, danışıqlarda tətbiq edilən ikili standartlar münaqişənin həllinə mənfi təsir edir: "Bu il aprel ayında Azərbaycan böyük hərbi qələbə əldə edib. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik... Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var. Sadəcə olaraq istəyirik ki, məsələ sülh yolu ilə həll edilsin və bu istiqamətdə ardıcıl siyasətimizi aparırıq. Siz yəqin ki, Amerikadan səslənən son bəyanatı da eşitmisiniz, oxumusunuz, Azərbaycan ictimaiyyəti də bunu bilir. Bu, yumşaq desək, təəccüb doğuran bir bəyanatdır. Azərbaycanı münaqişənin həll olunmamasında günahlandırmaq ən azı insafsızlıqdır. Digər tərəfdən, bax, bu bəyanat o biri bəyanatlarla necə uzlaşır?! Axı, Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: "Status-kvo qəbuledilməzdir". Biz bunu alqışlayırıq. Düzdür, bu sözdən sonra heç bir praktik iş aparılmır. Amma hər halda bu sözün artıq ortaya çıxması bizim böyük uğurumuzdur. Belə bir ciddi bəyanat ola-ola, "hər iki tərəf günahkardır, tərəflər buna hazır deyil, bu məsələ Fələstin-İsrail münaqişəsindən də mürəkkəbdir" demək sadəcə olaraq Ermənistanın işğalçı siyasətinə dəstək verməkdir. Bunun başqa izahı ola bilməz. Düzdür, indi müxtəlif bəyanatlar verilir ki, bu ifadələr kontekstdən çıxarılıb, düzgün başa düşülməyib. Biz hər şeyi yaxşı başa düşürük və bu gün internet dövründə yaşayırıq. Haradasa bir kəlmə deyilirsə, dərhal onun əks-sədası olur. Biz belə bəyanatları qəbul etmirik. Hesab edirik ki, tezliklə bu ifadələrə ən yüksək səviyyədə düzəliş edilməlidir. Əks təqdirdə, burada vasitəçilik missiyası şübhə altına düşə bilər. Bu, ancaq rəsmi qaydada səslənən bir tezis idi. Amma bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Biz indi bunları açıqlamırıq. Çünki diplomatiyanın öz qaydaları var. Ancaq həm Qərb mediasında, həm qeyri-hökumət təşkilatları tərəfindən bizə qarşı aparılan qarayaxma, şər-böhtan, təhqir kampaniyasının, həm də burada "beşinci kolon"a göstəriş verərək bunlardan istifadə etməyin əsas səbəbi bizi məcbur etməkdir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılığımızı verək. Bu, heç vaxt, olmayacaq. Nə qədər ki, biz iqtidardayıq, - referendum göstərdi ki, inşallah, biz iqtidarda çox olacağıq - heç vaxt Azərbaycan buna razılıq verməyəcək, Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik".

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Dollar 100 faiz bahalansa da, bizdə artım 40 faiz olub"



**Azərbaycanın qida sektorunun əsas təminatçısı olan "Azərsun Holdinq"in prezidenti Abdulbari Gözəl, oktyabrın 7-də media nümayəndələri ilə görüş keçirib. Musavat.com saytının məlumatına görə, şirkət rəhbəri istehsal olunan məhsulların dünyada tanındığını qeyd edib və buna misal olaraq, "Azərçayı" göstərib: "İllər əvvəl Heydər Əliyev bu sahəni mənə etimad etdi. Mən də digərləri kimi pulumu yığıb, Avropada tikinti işinə qoşula bilərdim. Azərbaycanda bu işi qurmağı daha məqsədəuyğun hesab etdim. Hər gün də daha yaxşı işlər görmək, fayda vermək üçün əlimdən gələni edirəm.**

Biz "Azərçay"ı Azərbaycan brendinə çevirmişik. İndi dünyanın harasına gedirsənsə, "Azərçay" istəyirlər. Hətta bizim şirkətə bir alman vətəndaşı məktub göndərmişdi. O, yazırdı ki, "Mən Fransada olanda "Azərçay"ın dadına baxmışam. İndi isə Almaniyadayam. Sizdən xahişim budur ki, pulunu, xərcini ödəyim, amma mənə "Azərçay" göndərin". Mətbuat bizi göstərən güzgüdür. İstəyirik ki, bizi olduğumuz kimi göstərsin. Nə böyük, nə balacaE"

Şirkət rəhbəri deyib ki, "Azərsun" bir neçə yeni məhsulunu "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxarmağa da hazırlaşır: "Prezident İlham Əliyevin bu günlərdə imzaladığı "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydasının təsdiq edilməsi haqqında" Fərmanı istiqamətində "Azərsun Holdinq" tərəfindən də mühüm işlər görülür. Holdinq tərəfindən bu günə qədər 200 hektar sahədə 200 minədək meyvə ağacı əkilib. Şirkətlər Qrupunun "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxaracağı yeni məhsullar isə nar məhsulları və enerji şirələridir".

Abdulbari Gözəl mətbuatda onların əleyhinə qiymət artımı ilə bağlı dərc olunan yazılara münasibət bildirib: "Elə məhsullar var ki, onlar yüz faiz yerli istehsaldır, lakin qablaşdırılması xaricdən gətirilir. Ona görə də qiymət artımı olanda, bunlara nisbətən az təsir edir. Lakin elə məhsullarımız var ki, xammal xaricdən gətirilir, lakin emal burada olur. Həmin məhsullarda artım qaçılmazdır. Məsələn, dolların qiymətində 100 faiz artım olsa da, bizdə artım 40 faiz olub. Təbii ki, zərərə işləsək, qiymətə əl atacağam. Başqa çıxış yolum yoxdur. Neftin qiyməti 50 dolları ötən kimi ABŞ düyməni sıxır, buruqlar işə salınır, nəticədə neft ucuzlaşır. Bu isə neftdən asılı olan bir çox ölkəyə mənfi təsir edir. Lakin bizim xoşbəxtliyimiz ondadır ki, ölkə başçısı İlham Əliyev bu proseslər başlamadan qeyri-neft sektorunun inkişafına dəstək verdi. Bunun da bəhrəsini görürük".

❑ **Musavat.com**



# Azərbaycanda illik inflyasiya 11faizi ötüb

**2016-cı ilin yanvar-sentyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2015-ci ilin eyni dövrünə nisbətən 11,2%, o cümlədən ərzaq məhsullarının qiymətləri 12,7%, qeyri-ərzaq məhsullarının qiymətləri 15,9%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 5,2% artıb.**

Dövlət Statistika Komitəsindən APA-ya verilən məlumata görə, 2016-cı ilin sentyabr ayında avqust ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,3%, o cümlədən ərzaq məhsullarının qiymətləri 4%, qeyri-ərzaq məhsullarının qiymətləri 1,6%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,6% artım. Ay ərzində düyünün, unun, çörəyin, makaron məmulatlarının, qarabaşaq, yulaf və arpa yarmasının, mal, qoyun və toyuq ətinin, balıq məhsullarının, kolbasa məmulatlarının, süd məhsullarının, yumurtanın, kərə və bitki yağlarının, şəkər və şəkər tozunun, limonun, bananın, üzümün, kələmin, göyərtinin, pomidorun, xiyarın, badımcanın, bibərin, göy lobyanın, kartofun, kökün, çuğundurun, sarımsağın, tütün məmulatlarının qiymətlərində artım, almanın, balqabağın, soğanın qiymətlərində isə azalma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Sentyabr ayında avqust ayı ilə müqayisədə qeyri-ərzaq məhsullarından parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, şüşə məmulatları, yemək qabları və əşyalarının, məişət cihazlarının, televizor, telefon və fotoaparatların, kompüterlərin, dəftərxana ləvazimatlarının, minik avtomobilləri və onlar üçün ehtiyat hissələrinin qiymətlərində artım müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. Ay ərzində əhaliyə göstərilən ödənişli xidmətlərdən hava və dəmiryolu nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətləri azalıb, ali təhsil müəssisələrində təhsil haqlarının, respublikadan kənara istirahət turlarının, mənzillərin icarə haqlarının, paltarların təmizlənməsi və təmiri xidmətlərinin, ayaqqabıların, məişət cihazlarının, mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri xidmətlərinin, stomatoloji xidmətlərin, bərbərxana və kosmetik xidmətlərin, ev və məişət xidmətlərinin qiymətləri artıb. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# İstiqlalçı deputatlar bayram tədbiri keçirəcək

**Oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunmasının 25-ci ildönümüdür. Dövlət müstəqilliyimizin 25-ci ildönümü münasibətilə İstiqlalçı Deputatlar Məclisi oktyabrın 17-də saat 15-də "Park-İNN" hotelində istiqlal mücahidlərinin, ictimai-siyasi xadimlərin, görkəmli ziyalıların, Qarabağ qazilərinin, KİV nümayəndələrinin iştirakı ilə bayram tədbiri keçirəcək. Bu barədə İstiqlalçı Deputatlar Məclisi adından istiqlalçı deputat, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın mətninin müəllifi, Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri, professor Hacıbaba Əzimov məlumat verib. Hacıbaba Əzimov iştirak etmək arzusunda, istəyində olan hər kəsi sözügedən bayram tədbirinə dəvət edib.**

❑ **E.SEYİDAĞA**



# AŞ PA-da da Azərbaycanın Avropa Məhkəməsində hakimi məsələsinə baxılacaq

**Milli Məclisinin AŞ PA-dakı nümayəndə heyətinin üzvləri Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılığı ilə qurumun payız sessiyasında iştirak etmək üçün oktyabrın 9-dan Fransanın Strasburq şəhərində səfərdə olacaqlar. Milli Məclisdən APA-ya verilən məlumata görə, nümayəndə heyətinə deputatlar Elxan Süleymanov, Vüsal Hüseynov, Qənirə Paşayeva, Rövşən Rzayev, Sahibə Qafarova, Rafael Hüseynov, Sevinc Fətəliyeva, Müslüm Məmmədov, Fazil Mustafa və Sabir Hacıyev daxildirlər.**

AŞ PA-nın iclasları 5 gün davam edəcək, bir sıra aktual məsələlərə baxılacaq. Öncə bu ilin 15 iyulunda Türkiyədə baş vermiş dövlət çevrilişinə cəhddən sonrakı vəziyyət ətrafında fikir mübadiləsi aparılacaq. AŞPA-nın son 6 aydakı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının isə 2015-2016-cı illərdəki fəaliyyətinə dair məruzələr dinləniləcək. Belarusda və İordaniyada keçirilmiş son parlament seçkiləri müzakirə olunacaq.

Sessiyada hakimlərin seçkisinə dair səsvermə zamanı Avropa İnsan Hüquqları Məhkəməsində Azərbaycanı təmsil edəcək hakimliyə namizəd məsələsinə də münasibət bildiriləcək.

İclaslarda Avropa Şurasının baş katibi T.Yaqland, Fransa prezidenti F.Olland, Estoniya, Türkiyə və Almaniyanın XİN başçıları çıxış edəcək, qurum üzvlərini narahat edən sualları cavablandıracaqlar.

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

# Abort tullantılarından gənclik cövhəri hazırlanır - sensasion araşdırma

## Azərbaycanda kök hüceyrə transplantologiyası haqda qanun qəbul edilə bilər; varlılar əbədiyaşar olacaq, məzarlıqlarda yalnız kasıblar üçün qəbirlər qazılacaq...



**Müasir elm sübut edir ki, əsl sirlər xəzinəsi, cənnət bağı elə insan bədəninin özüdür. Ölməzlik genlərini də, dirilik almasını da elə insan bədəninin daxilində axtarmaq lazımdır - nəinki kənardakı Hesperid bağlarında. Bugünkü səyahətimiz həmin ölməzlik genlərinə - kök hüceyrələrə həsr edilib.**

Müasir tibb elmi artıq öz sirlər xəzinəsini, qızıl almalarını bu mövzuda - kök hüceyrələrdə tapıb. Bu sahədə gur axtarışlar, tapıntılar sürət götürüb, bir an belə dayanmır. Burda həm müsbət irəliləyişlər var, həm də mənfi. Burda həm şeytan var, həm mələk. Həm dirilik suyunu içmiş Xızır İlyas, həm də zülmkar Zöhhak.

***

Qədim əcdadlarımız dünyaya yenicə gəlmiş çağaların göbəyini götürüb atmaz, onu adətən qoruyub saxlardılar. Hesab edərdilər ki, o bütün dərdlərə dərmandır. Min bir bəlanın əlacıdır. Qədim türklərdə buna xüsusi, ayrıca fikir verər, kəsilmiş göbəkləri balaca torbaya qoyub uşaqların boynundan asardılar. “Bu göbəkdən sonradan necə istifadə edərdilər?” sualına indi dəqiq cavab vermək mümkün deyil. Müasir tibb elmi, babalarımızın bu adətinə ancaq indi-indi bəraət verir. Hesab edir ki, dirilik suyu, ölməzlik dərmanı bax elə bu çağa, körpə göbəklərində, onların tərkibindəki ölməz kök hüceyrələrindədir.

***

Azərbaycan tibbi, bu vacib sahədə yerində saymır - o da kök hüceyrələr transplantalogiyasına qoşulmağa tələsir. Beləliklə, ölməzlik zərrəsi, dirilik suyu artıq özünə yeni ad qazanıb - ona indi “kök hüceyrələr tranpsplantalogiyası” deyilir. Qızıl almaları dərən müasir Məlik Məmmədlər isə ağ xələtli həkimlərdir. Onların sıralarında artıq Azərbaycan mütəxəssisləri də var.

Bu mövzunun ölkəmizdə ilk qaranquşu, baş mütəxəssisi professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nuru Bayramov sayılır. Məhz onun rəhbərliyi ilə Azərbaycanda ilk dəfə olaraq qaraciyər xəstəsinə “Kök hüceyrə transplantasiyası” əməliyyatı həyata keçirilib. Əməliyyat Tibb Universitetinin (ATU) Tədris Cərrahiyə Klinikasında aparılıb. Xəstənin sümük iliyindən əldə edilən mezenximal kök hüceyrələri intraarterial yolla qaraciyərə trans edilib.

Əməliyyatda transplantologiya şöbəsinin müdiri t.ü.f.d. Dr. Ruslan Məmmədov, Şüa-diaqnostika şöbəsinin müdiri Dr. Rasim Bayramov, İnvaziv kardiologiya şöbəsinin müdiri, t.ü.f.d. Dr. Qalib İmanov, Hematoloq Dr. Naidə Ağayeva, Molekulyar bioloq və genetik Dr. Fərid İsmayıllı, Həkim-Anesteziolog Dr. Məmməd Şirinov, Rezident Mehriban Hüseynova iştirak edib.

**Məşhur həkim, Milli Məclisin deputatı Əhliman Əmiraslanov mövzudan kənarda qalmayıb, müsahibələrində dəfələrlə bu mövzuya toxunub. Əhliman Əmiraslanov bildirib:** “Dünyada kök hüceyrələrinin öyrənilməsinə xüsusi diqqət yetirilir. Bu gün belə Kök Hüceyrə Mərkəzi yaratmaq üçün imkanımız, kadrlarımız var. Kadrlar Azərbaycandan kənarda yetişiblər. Biz belə bir mərkəz qurmaq üçün gecikmişik. Onu da nəzərinizə çatdırım ki, Türkiyədə kök hüceyrə mərkəzlərindən birinə də azərbaycanlı professor rəhbərlik edib”.

***

Müasir tibb xəbərləri arasında ən diqqətçəkəni, kök hüceyrələr vasitəsilə xəstəliklərin müalicəsidir. Zədələnmiş orqanlara birbaşa kök hüceyrə yeridilməsi ilə, əvvəlki funksiyaları bərpa edilir.

Tanış olun, zərərçəkən Aleksandr Zazulya. Qəza nəticəsində onun nəfəs yolları, hulqumu sıradan çıxıb. Alimlər əvvəlcə bu zədələnmiş bədən üzvlərini sünisiylə əvəzləyirlər. Sonra kök hüceyrələri süni hulqumun ətrafına yerləşdirib onun funksiyasını bərpa edirlər.

**Daha bu möcüzəyə nə deyəsən?**

İndi bildinizmi qədim türklər niyə ana ciftini, kəsilmiş göbəyi götürüb zibilliyə tullamırdılar? Kəsib, torbaya qoyur, uşağın boynundan asırdılar?

***

Möcüzələr davam edir - alimlər, kök hüceyrələrdən yeni diş yetişdirməyə girişiblər. Britaniyalı həkim Pol Şarp, bu sahədə xüsusən şöhrət qazanıb. Dişlərin kök hüceyrələri inkubatorlara yerləşdirilib. Sınaqlar başlayıb. Pol Şarp iddia edir ki, tezliklə diş həkimlərinin işi xeyli azalacaq. Kök hüceyrələri, dişlərə calaq ediləcək, son nəticədə dişlər kənar müdaxiləsiz özünü bərpa edəcək. Qısası, yaxın gələcəkdə kök hüceyrələr, təcili yardım heyətləri kimi, xəstələrin köməyinə çatacaq. Britaniya həkimləri kök hüceyrə donorları üçün xüsusi tibb çantaları hazırlayıblar. Babalarımız uşaq göbəklərini kisələrdə saxlayırdı. Təzə tibb çantaları isə, həmin torbalardan dəfələrlə etibarlı olacaq. İxtiranın müəllifi britaniyalı həkim Nik Feldir.

**Məhz bu dəyərli, əvəzsiz xüsusiyyətlərinə görə bəziləri yenicə doğulmuş çağaların qanını “maye qızıl”, körpə ciftini, yəni plasendanı isə ölməzlik dərmanı bilərlər.**

***

İndisə keçək məsələnin mənfi tərəflərinə. Qədimlərdə deyirsiz bu sirləri bilmirdilər? Yox, səhv edirsiz, bilirdilər. Çağaları, körpələri elə beşiyindəcə məhv etmək, irağ olsun, yemək adətləri də görünür elə belə boş yerdən yaranmayıb. Qədim Zöhhak əfsanəsinin bu mövzuya birbaşa dəxli var.

Firdovsinin “Şahnamə”sinə görə, Zöhhaka qədər insanlar ət yemək nədi bilməzdilər. İlk dəfə bunu Zöhhak edir. Şeytan, öz növbəsində bunu bəyənir, Zöhhakı təqdir edərək hər iki çiyinindən öpür. Ordan iki əfi ilan doğur və bu ilanlar yemək üçün hər gün özlərinə təzə-təzə körpələr, çağalar tələb edirlər. Dəmirçi Kavə axır buna son qoyur. Önlüyünü bayraq edib xalqı Zöhhaka qarşı üsyana qaldırır. Körpələrin, çağaların soyqırımına, şükür, xalq nöqtə qoyaraq Zöhhakı qətlə yetirir.

***

**Nuru Bayramov başda olmaqla alimlərimiz bütün bu fəsadları indidən gözləri önünə gətiriblər. Kök hüceyrələrin transplantalogiyası ilə əlaqədar müvafiq qanun layihəsinin Milli Məclisə təqdim edilməyi, görünür, təsadüf deyil. Milli Məclisin payız sessiyasının ilk plenar iclasında deputat Musa Quliyev kök hüceyrə mövzusunu ayrıca qeyd edib. Qanunvericilik işləri planına müəyyən təkliflər irəli sürüb. Mətbuatda bildirib:** “Təəssüflər olsun ki, meyitlərdən orqanların götürülməsi ilə bağlı qanunlara dəyişiklik lazımdır. Bir çox xəstəliklər var ki, xəstələrimiz müalicə üçün xaricə gedirlər və sonra da nəzarətsiz qalırlar. Toxumaların, buynuzlu qişaların, kök hüceyrələrinin ölkəyə gətirilməsi haqda qadağa yoxdur. Amma bunların ölkəyə gətirilməsini təmin etmək üçün müvafiq qanun və direktiv yoxdur”.

***

İndi kök hüceyrə transplantologiyası vasitəsiylə bəzi imkanlı şəxslər gəncləşmək, cavanlaşıb təbiətə meydan oxumaq, yəni Zöhhak əfsanəsini yenidən canlandırmaq, dirçəltmək istəyirlər. Bütün bunlar son nəticədə həmin istifadəçiləri nağılların mənfi qəhrəmanlarına oxşadır. Tanış olun. Bələlərindən biri də, Rusiyada kök transplantalagiyası sahəsində ad çıxarmış professor Liskodur.

Bu şübhəli şəxs, 80-ci illərin sonunda SSRİ-dən okeanın o tayına, ABŞ-a mühacirət edib. Orda, kök hüceyrə transplantologiyasının gələcək prespektivlərinə bələd olunca, gözləri alışıb yanıb. Qayıdıb vətəninə. 9 saylı Moskva doğum evi nəzdində “Kronas” tibb mərkəzini yaradıb. Rusiya siyasi elitasına, əbədi gənclik vəd edərək, fəaliyyətə başlayıb. Qısa zaman ərzində Rusiya siyasi, mədəni elitasını kök hüceyrə narkomanına çevirib. Və nəticədə Rusiya Federal Təhlükəsizlik Xidmətinin diqqət mərkəzinə düşüb. Bəlli olub ki, professorun Amerikada çox saylı şübhəli əlaqələri var.

***

Kök hüceyrə köçürülməyində ciddi fəsadlar da mümkündür. Şou-biznes ulduzu Janna Friskenin faciəi ölümü burda çoxlarına ibrət ola bilər. 40 yaşında gəncləşmək sevdasına düşən bu pop-ulduzun bədəninə kök hücüyrələr yedizdirilir. Amma əməliyyatın nəticələri o qədər də xoşagələn olmur. Tezliklə Jannanın beynində müəmmalı şiş əmələ gəlir və o, sürətlə qocalmağa başlayır. Jannanın ölümü ətrafında dedi-qodular mətbuatda hələ də davam edir. Məhz bu fakta görə Rusiya ictimaiyyəti, mətbuatı kök hüceyrə transplantalogiyasını yasaqlamağı indi israrla tələb edir. Mövzu ətrafında əməlli-başlı kriminal ovqat yaradılıb. Bəlli olub ki, professor Lisko, rus elitasını müəmmalı bir ünvana yığaraq vaxtaşırı orda qəribə gizli ayinlər həyata keçirir.

***

Jurnalistlər, həmin yeraltı ünvanda gizli videokameralar quraraq, belə toplantılardan birini lentə çəkməyə müvəffəq olublar. Həmin videomateriala sakir baxmaq indi də mümükün deyil. Gizli kamera ilə çəkilmiş həmin nadir kadrlarda körpə, çağa ətinə susamışlar xüsusi ayində birləşiblər. Abort tullantılarını yuxarı qaldırıb öz şeytanlarına dua edirlər...

***

Kök hüceyrə transplanbtalogiyasında indi əsas məsələ əks prosesi işə salmaqdır. Yəni, təcrübələr, tərsinə gedərkən də özünü doğrultmalıdır. Biz, qoca hüceyrələri, tərsinə yaşadıb, onu özünün ilk vəziyyətinə gətirib çıxarmalıyıq. Ana bətnindəki rüşeymlərə artıq bu zaman ehtiyac qalmayacaq. Gizli hannibalizm bax bu cür məhv ediləcək, inşallah.

***

ANS telekanalında çalışarkən biz mövzu ilə əlaqədar professor Nuru Bayramovla görüşə bildil. Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasındakı rahat kabinetində bizi qəbul edən professor, gözümüzə çox nikbin göründü o vaxt. Dedi ki, nigarançılığa əsla yer yoxdur. Qeyd etdi ki, ölkəmizdəki bütün abort tullantıları indən belə, Milli Məclis müvafiq qanun qəbul etdikdən sonra, xüsusi Kök Hüceyrə Mərkəzlərinə təhvil veriləcək. Seperasiya nəticəsində əldə olunan kök hüceyrələr, xüsisi müraciətdən sonra ağır xəstələrə köçürüləcək.

“Qorxmursunuz, varlılar bundan istifadə edib cavanlaşacaq, qocalığı kasıblara miras qoyacaqlar?” sualımızı o vaxt Nuru müəllim eşidib azca gülümsədi. Dedi, nigarançılığa çox da qapanmayaq.

Mən isə Nuru müəllimin kabinetində dilimi çox da dinc saxlamadım.

“Kök hüceyrə transplantalogiyası həyatımıza geniş daxil olsa, dünyada ilk olaraq görünür məzarlıqlar, qəbirlər azalacaq. Qəbirlər ancaq kasıblara məxsus olacaq. Varlılar biokameralarda yaşayacaqlar. Hadisələr məşhur "Dağlı" filminin süjetini təkrarlayacaq, Nuru müəllim" - deyib, professordan cavab gözlədim.

Professor, bu cür bədii suallara deyəsən hazır deyildi. Bu səbəbdən sualımızı sükutla cavablandırdı. Üzünü, arxasındakı divara çevirdi. Divarı bəzəyən çoxsaylı sənədlər, Nuru müəllimin elmdəki xidmət, nailiyyətlərini tam əks etdirirdi. Əyləşdiyim yumşaq kreslodan tənbəl-tənbəl ayrılaraq bu sənədlərə bir xeyli zilləndim.

İçimdən xoş bir dalğa qalxıb bütün vücuduma sahibləndi elə bil.

Kök hüceyrə transplantologiyasının müsbət perspektivlərinə bir an inanıb, köksümü ötürdüm.

***

Yenə də qayıdıram əcdadlarımızın kəsib saxladığı, uşaqların yaxasından asdıqları göbəklərə.

Məncə, ölməzlik zərrəsi həmişə orda gizlənib.

Onu indi tapıb insanların istifadəsinə buraxmaq lazımdır.

**Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

**İnternetdə Azərbaycanın sabiq prezidenti, mərhum Əbülfəz Elçibəyin 1993-cü ilin aprelinin ilk günlərində Türkiyənin TRT kanalına verdiyi müsahibə yayılıb. Türkiyənin eks-prezidenti Turqut Özalın Azərbaycana səfərindən bir neçə gün öncə götürülmüş bu müsahibədə Elçibəy Kəlbəcərin işğal olunması ilə bağlı danışaraq qeyd edir ki, ordunun məğlubiyyətində mənəvi ruhun aşağı düşməsindən danışmaq düz olmaz.**

# Elçibəyin 23 il 6 ay sonra ortaya çıxan müsahibəsi

## Eks-prezident Kəlbəcərin işğalı günlərində Türkiyə, Rusiya və İrana hansı müraciəti edibmiş? **Pənah Hüseyn:** "Sonradan bəzi faktlar aşkara çıxmışdı ki…"

"Ordunu qurmağa vaxt yoxdur. Düşmən üstümüzə gəlir. Bizim nizami ordumuz yoxdur. Bizə vaxt vermədilər. Azərbaycanın bütün kəndlərində şəhidlər xiyabanı var. Ruh yüksəkliyi olmasa, bu olarmı",- deyə eks-prezident bildirir. Daha sonra Elçibəy Türkiyənin Azərbaycanla bağlı mövqeyini tənqid edir. Dövlət başçısı vurğulayır ki, Türkiyə siyasətdə həmişə bütün dünyaya Azərbaycanın yanında olduğunu bildirir. Amma daha sərt addımlar ata bilərdi. Bu addımlar atılmır. "Türkiyədən nələr gözləyirsiniz, bundan sonra Türkiyə nə etməlidir, Sizə necə kömək edə bilər" sualının cavabı da maraqlıdır. Ə. Elçibəy bildirir ki, o yardımlar haqqında danışmaq istəmir: "Onu gərək türk hökuməti özü düşünsün. Türk hökuməti təcrübəlidir. Kəlbəcər hadisələrində çox çətin bir vəziyyət yaranmışdı. İnsanlar qırıldı. Mən Türkiyəyə, İrana, Rusiyaya müraciət etdim ki, hərəsi 5-10 helikopter versin - Kəlbəcərdə qalan körpələri, qadınları, mülki əhalini atəşin altından çıxarmaq üçün. Heç kim vermədi. Heç bir dövlət vermədi. Nə Rusiya verdi, nə İran, nə də Türkiyə. Bunu humanitar bir addım kimi etmək olardı".

Türk jurnalistinin "bütün günah başqalarındamı, Sizdə yəni heç bir günah yoxdur", - deyə Elçibəydən soruşur. Elçibəy Kəlbəcərin işğalında çox insanların səhvi olduğunu etiraf edir: "Bizim də səhvimiz var. Yəni biz Kəlbəcərin işğalını gözləmirdik. Çünki Kəlbəcərin Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur. Biz hesab edirdik ki, orada özümüzü müdafiə edə bilərik. O işğalda rus əsgərləri də iştirak etdi. Haradan gəliblər? Muzdululardımı? Bilmirik".

**AXC hakimiyyətinin baş naziri işləmiş Pənah Hüseyn** işğaldan iki gün öncə vertolyotla Kəlbəcər rayonuna gedən və hadisələrin canlı şahidi olan ən yüksək çinli hakimiyyət təmsilçisi olub. Elçibəyin dedikləri ilə bağlı ən məlumatlı adam kimi onunla vertolyot məsələsi ilə bağlı danışdıq.

P.Hüseyn aprelin 27-də ermənilər rus hərbçiləri ilə birlikdə Kəlbəcərə bir neçə istiqamətdən hücuma başladığını xatırlatdı: "Həm Ermənistan ərazisindən, həm də Ağdərə istiqamətindən hücum edirdilər. Kəlbəcərin işğalı hücum başlanandan 6 gün sonra gerçəkləşmişdi. Prezident Əbülfəz Elçibəy isə həmin günlərdə Bakıda səfirləri toplayaraq onlara Kəlbəcərdə yaranmış vəziyyət haqqında məlumat vermişdi. Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara və konkret bir sıra ölkələrə, o cümlədən Türkiyəyə bu vəziyyətə müdaxilə etmək, kütləvi qətliam təhlükəsi altında qalmış dinc əhalinin vəziyyəti ilə bağlı kömək üçün müraciət-



lər etmişdi. Bunlar barədə o dövrdə Azərbaycan və dünya KİV-lərində geniş məlumatlar yayılmışdı. Konkret vertolyot istənilməsi məsələsinə gəldikdə, bu addım həmin günlərdə Kəlbəcərin dinc əhalisinin qırğın təhlükəsi ilə üz-üzə qaldığına diqqəti cəlb etmək üçün atılmış simvolik addım idi. Mən tam məsuliyyətlə deyirəm ki, o dövrdə dinc əhalinin daşınması üçün kifayət qədər vertolyot da var idi. Azərbaycanın öz daxili imkanları hesabına 60 minə yaxın dinc əhali cəmi bir neçə gün ərzində rayon ərazisindən çıxarmışdı. Rus və erməni silahlıları Kəlbəcər şəhərinə girənə qədər vertolyotlar gecələr də işləyərək əhalini çıxarmaqla məşğul olub. Şəxsən mənim özüm oraya getdiyim vertolyotu yaralıların, yaşlıların, uşaq və qadınların çıxarılması üçün verdim. Mən rayonu son anda tərk etdim və piyada Murovdan gəldim".

P.Hüseyn onu da bildirdi ki, Murov dağına istiqamətlənən dar bir yolun ermənilər tərəfindən kəsilməsinin və əhalinin tamamilə mühasirədə qalmasının qarşısının alınması üçün çox böyük itkilərlə müşahidə olunan müdafiə döyüşləri həyata keçirilmişdi. Bunun nəticəsində dinc əhali kütləvi qətliamdan xilas edilmişdi və ikinci Xocalı faciəsinin baş verməsinin qarşısı alınmışdı.

**Sabiq baş nazirin sözlərinə görə, Kəlbəcərin işğalının qarşısını almaq mümkün olmasa da Əbülfəz Elçibəyin diplomatik səylərinin nəticələri var idi:** "Sonradan bəzi faktlar aşkara çıxmışdı ki, Elçibəyin diplomatik səyləri erməni və rus silahlı birləşmələrinin Kəlbəcərdə dinc əhaliyə qarşı daha dəhşətli, geniş miqyaslı hərəkətlərdən çəkindirilməsində rolu olub. Kəlbəcərin işğalından az sonra BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Kəlbəcərdən dərhal qeyd-şərtsiz çıxarılması barədə 822 saylı qətnamə qəbul etmişdi. Kəlbəcərin işğalına görə Türkiyə Ermənistanla sərhədlərini bağladı, bütün diplomatik əlaqələrini kəsdi. Beynəlxalq birliyə, ayrı-ayrı dövlətlərə prezidentin müraciətlərinin tam nəticəsiz və cavabsız qaldığından danışmaq düzgün olmazdı. Əbülfəz Elçibəy Kəlbəcəri, kəlbəcərliləri çox sevirdi. Bu rayona onun xüsusi bağlılığı gənc yaşlarında Kəlbəcərdə çox olmasından yaranmışdı. Bu yaxınlarda saytların birində onun gənc yaşlarında Misirdə işlədiyi zaman qardaşı Murada yazdığı məktuba rast gəldim. Əbülfəz Elçibəy hələ 1960-cı illərin sonlarında yazdığı həmin məktubda "Kəlbəcər rayonundan, kəlbəcərlilərdən ötrü burnumun ucu göynəyir. Kəlbəcərlilərə salam söylə, Kəlbəcərin hər daşına ağacına qurban olum" yazıb. Təəssüflər olsun ki, Kəlbəcərin işğalının qarşısını almaq mümkün olmadı".

❑ **Etibar SEYİDAĞA**

# "Kimsə əxlaqsız fikirlər səsləndirirsə, onun mənəviyyatı odur"



## **Məlahət İbrahimqızı:** "Ailələri ilə də o tərzdə davranırlar?"; xanım deputat onu təhqir edənlərlə bağlı məhkəməyə müraciət edə bilər

**Milli Məclisin deputatı, YAP-ın Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı parlamentin son iclasındakı çıxışına görə sərt tənqidlərə məruz qalır. Xanım deputatın internet televiziyaları barədəki sözləri sosial şəbəkələrin və mətbuatın müzakirə mövzularından birinə çevrilib.**

M.İbrahimqızı təklif edib ki, internet televiziyalarının fəaliyyəti barədə qanun qəbul olunmalı və onların fəaliyyəti bu qanunla tənzimlənməlidir.

Oktyabrın 6-da internet media ilə bağlı keçirilən dəyirmi masada çıxış edən M.İbrahimqızı yenə də bu mövzuda sərt danışıb. Deputat sosial şəbəkələrdə və bütünlükdə internetdə nəşrlərə nəzarət tətbiq etməyə çağırıb: "İnsanlar mətbuatda sərhədi aşan, əxlaqımıza uyğun olmayan fikirlərdən beziblər. Təhqiramiz sözləri görəndə dəhşətə gəldim, görəsən biz beləyikmi? Dövlət atributlarımız haqda ağıllarına gələni yazırlar. İnsan hüquqlarının nə olduğunu bilməyən insanlar təhqiramiz fikirlərlə ziyalılarımızı cəmiyyətdə gözdən salmağa çalışırlar. Bunun qarşısı alınmasa, proses sürətlənə bilər".

M.İbrahimqızı internetdə nəşrlərə nəzarət üçün xüsusi monitorinq qrupunun yaradılmasını da təklif edib. Bu fikirlərindən sonra o, yenə də tənqid obyektinə çevrilib. Xüsusilə, facebookda xanım deputat daha çox tənqid olunur.

**Barəsində sərt tənqidlərlə bağlı M.İbrahimqızının mövqeyini aldıq. YAP-çı deputat nəzarət deyəndə senzuranı nəzərdə tutmadığını söylədi:** "Küçə sözlərindən istifadə olunanda, mənəviyyatımıza zidd şəkillər qoyulanda buna etirazımı bildirirəm. Düşünürəm ki, kimsə əxlaqsız fikirlər səsləndirirsə, onun mənəviyyatı odur. İnsan insanla niyə təhqirlə danışmalıdır? Bu fikirlərim təkcə jurnalistlərə deyil, istənilən şəxsə aiddir. Bütün cəmiyyətlərdə əxlaqında belə problemi olan şəxslər var. Onları tərbiyələndirmək fikrimiz yoxdur. Belə insanlar tarix boyu olub, indi də var, bundan sonra da olacaq. Burada söhbət ziyalıdan, jurnalistdən, cəmiyyətdə tanınan şəxsdən gedir".

**Xanım deputat onu təhqir edənlərə sərt cavab verdi:** "Tənqid nə qədər istəyirlər etsinlər. Bacarıqsız, qabiliyyətsiz yazsınlar, buna heç zaman etiraz etmərəm. Bəlkə məni o cür tanıyırlar. Ola bilər ki, özümü düzgün tanıda bilməmişəm. Amma parlamentdəki çıxışımdan sonra paylaşılan şəkilləri görəndə dəhşətə gəldim. Onlar evdə ailələri ilə də o tərzdə davranırlar? Mənim 30-40 yaşım olsaydı, bəlkə də bu məsələlərdə bu qədər danışmazdım. Onların mənəviyyatsız hərəkətlərinə münasibət bildirməzdim. Mənim 58 yaşım var, nənəyəm. Öz övladlarım yaşında olan şəxslərə qarşı fikir bildirməyə haqqım çatır. Bizim minlərlə insanlarımız sosial şəbəkələri, həmin saytları izləyirlər. Elə şəkillər görməleri onların mənəviyyatına təsir edə bilər. Bu baxımdan normaların olması vacib saydım. Biz harada yaşayırıq ki, belə hallarla üzləşirik. Əlinə qələm alan şəxs ziyalı, məmur sayılırsa, belə şəxslər hərəkətlərinə diqqət etməlidirlər. İndiyə qədər mətbuatla heç bir problemim olmayıb. Niyə də olmalıdır? Bizim fəaliyyətimizi sizlər qiymətləndirir, cəmiyyətə çatdırırsız. Sizlər olmasaydı, bizləri heç kim tanımazdı. Məni kimlər tanıyırsa, mətbuatın vasitəsilə tanıyırlar. Amma ogünkü çıxışımdan sonra bəzi mətbuat orqanları barəmdə olmazın sözlərini yazdılar, sosial şəbəkələrdə təhqir olundum. Bunları sübut etmək üçün əlimdə screenlər var. Onları məhkəməyə də verə bilərəm, şərəf və ləyaqətimin pozulması ilə bağlı. Amma yenə də bunu vicdanıma buraxıram. İşlətdikləri ifadələr bizlərə yapışmır, ən yumşaq halda bu fikirləri işlədən şəxslər qınaq obyekti olurlar. Kim deyir ki, tənqid etməyin? Edin, amma normaları keçməyin. Mətbuat cəmiyyətin işığıdır, hamımızın buna ehtiyacımız var. Məlumatları mediadan alırıq, qısa zamanda dünyada və ölkədə gedən proseslərdən bunun vasitəsilə məlumat tuturuq. Sosial şəbəkələr, internet əsrində yaşayırıq. Təsəvvür edin ki, həmin şəxslərin instagram səhifələri bundan da dəhşətlidir. Mən Azərbaycan qadınıyam, bu ölkənin ziyalısıyam. Belə hallara göz yummalıyıq? Bu əsla olmaz. Bir mətbuatdan xahiş edəcəm ki, onların paylaşdıqları fotoları, yazdıqları statusları dərc etsinlər. O zaman hər kəs görəcək ki, heç bir əxlaqlı insan belə şeylərdən istifadə etməz. İnsanların şəxsi həyatının toxunulmazlığı var. Elə şəxslər üçün mənəviyyat, dəyərlər yoxdur. Onların təhqirlərindən sonra yüzlərlə insanlar zəng edib, dəstək olduqlarını bildirdilər. Artıq onlar sərhədi keçiblər. İş o yerə çatıb ki, küçə söyüşlərini bu şəxslər adi sözlər kimi qarşılayırlar".

**YAP funksioneri internet televiziyalarının fəaliyyətləri ilə bağlı təkliflərinin təhqirlərə məruz qalmasından sonra qaynaqlanmadığını da qeyd etdi:** "Bu qətiyyən elə deyil. Əgər belə olsaydı, heç danışmazdım. Deyərdim ki, məni təhqir etmirlər, mənəviyyatıma toxunmurlar. Buna görə də nəyimə gərəkdir. Sancaqdır, muncuqdur, meydandır, "vsetka"dır nədir, bilmirəm, orada insanlar təhqir olunacaqlar, biz də susacağıq? On minlərlə izləyiciləri var, utanmırlar. Bunlara ana-bacılarımız baxırlar. Öz ailələrində həmin fotolardan, sözlər istifadə edirlər? İmzalarına hörmət etdiyimiz çoxsaylı jurnalistlər var. İndi bunları həmin jurnalistlərlə eyniləşdirək? İşlərim kifayət qədər çoxdur. Amma belə hallara göz yuma bilmərəm. Nizami Gəncəvi, Səməd Vurğun, Üzeyir Hacıbəyov və digər bu kimi tarixi şəxsiyyətlərimizdən yazırlar. Demək bunların məqsədi Azərbaycanın dəyərlərini məhv etməkdir. Bunlar milli mənəvi dəyərlərimizə terrordur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

**SOCAR-ın Kapital Bazarları üzrə Baş Məsləhətçisi Ali Ağaoğlu SOCAR İstiqrazı ilə bağlı "Yeni Müsavat" qəzetinə müsahibə verib. A.Ağaoğlu müsahibəsində vətəndaşları düşündürən, narahat edən bütün sualları cavablandırıb.**



# SOCAR mütəxəssisi: "Bir günün içində vətəndaş istiqrazı nağd pula çevirə bilər"

## Ali Ağaoğlu: "İstiqrazları ona görə dollarla buraxdıq ki, seyflərdə, yastıq altında saxlanılan pulların əksəriyyəti dollarladır"

*(Əvvəli ötən sayımızda)*

***- Ali bəy, ən çox müzakirə olunan bir sual da budur ki, bu gün istiqraz alan insan onu nə zaman nağd şəkildə geri ala bilər? Bunun üçün neçə gün zaman lazımdır və istiqraz sahibi hansı prosedurları keçməlidir?***

- Bircə gün. Bir günün içində istiqrazı nağd pula çevirə bilər. Ən pis halda, istiqrazı bazarda sata bilmirsinizsə, biz hər zaman onu 1000 dollardan almağa hazırıq. Bunu rəsmi olaraq açıqlamışıq. Ancaq bu hamısı deyil. Biz 1000 dolları sığortaladıq ki, pul itirməyəsiniz. 1000 dollar əmanətdən əlavə, onun hesablanmış faizini də ödəyəcəyik. İstiqraz sahibi bir istiqraz üçün hər üç aydan bir 12,5 dollar faiz alacaq. İstiqraz alındığı andan faizi işləməyə başlayır. 1 və 5 saylı "ASAN" xidmət mərkəzlərində hər zaman istiqrazların alınması ilə bağlı bir köşk olacaq. Orada istiqrazı geri qaytaran müştərimiz, Mərkəzi Bankın hesabında olan pulunu 1 gün ərzində alacaq. Vətəndaşlarımızın bu mövzuda narahatlığına heç bir əsas yoxdur.

***- Nə üçün istiqrazların məhz dollarla buraxılmasına qərar verdiniz? Gələcəkdə manatla istiqraz buraxılması da gözlənilirmi?***

- İstiqrazların dollarla olmasının səbəbi odur ki, Azərbaycanda iki devalvasiyadan sonra vətəndaşların əmanətlərinin 80 faizdən çoxu dollardadır. İnsanlar dollara daha çox yatırım etməyə başladılar.

***- Burada yalnız vətəndaşların mövqeyini nəzərə aldınız? Yoxsa, dollarla yatırım edilməsi SOCAR-ın da maraqlarına uyğundur?***

- İstiqrazların hansı valyutada olması SOCAR-ın seçimi deyil. Valyuta bazarındakı vəziyyətə görə SOCAR dolları seçməli oldu. Çalışdı ki, nə vətəndaşa zərər dəysin, nə də özünə. SOCAR layihələrinə sadəcə manatla investisiya qoymur. Dollarla yatırım edir, avrobondları alır, kreditləri ödəyir. Xaricdən satın alacağımız avrobondlar da dollarla olduğuna görə istiqrazların dollarla olması həm SOCAR üçün, həm də vətəndaşlar üçün çox doğru seçimdir. Ancaq bu seçimin əsas səbəbi odur ki, bu gün seyflərdə, yastıq altında saxlanılan pulların əksəriyyəti dollarladır. Bizim məqsədimiz də yastıq altındakı pulları iqtisadiyyata qazandırmaq olduğu için, vətəndaş hansı valyutada pul saxlayırsa, biz də həmin valyutada istiqraz buraxmağa üstünlük verdik. Əgər istiqrazları manatla buraxsaydıq, bazarda yetərli manat kütləsi olmadığı üçün bu uğurlu olmayacaqdı. Bir də banklarda yerləşdirilən manat əmanətlərinin faizi daha yüksək olduğuna görə onlarla rəqabət aparmaq məcburiyyətində qalacaqdıq. Banklar 12-13 faizlə əmanət götürürsə, biz 16-17 faizlə istiqraz buraxmalıydıq ki, insanlar bizə üstünlük versinlər. Ancaq biz bank sistemi ilə rəqabətə girmək istəmirdik, ona görə də bu haqda ümumiyyətlə düşünmədik. Amma qarşıdakı dövrdə manatla olan istiqrazlar da buraxmaq haqqında düşünürük. Bundan əvvəl isə dollara indekslənmiş manat ixrac etməyi planlaşdırırıq. Bu necə olacaq? İlk istiqrazımız dollarla idi, bundan sonra bir dənə də dollarla istiqraz buraxacağıq. Daha sonra dollara indekslənmiş manat istiqrazı buraxılacaq. Siz istəsəniz dollar, istəsəniz manat verərək bu istiqrazı ala bilərsiniz. Sizə dollar faizi ödənəcək. Ancaq son müddət gəldiyində sizin üçün hansı valyuta sərfəlidirsə, həmin valyutada bizdən öz yatırdığınız məbləği ala biləcəksiniz. Məsələn, bu gün dolların məzənnəsi 1.60-dır, biz sizə 5 faizlə 1 illik istiqraz veririk. Sizin bir ildən sonra hesabınızda 1680 manatınız olacaq. Əgər dollar 1.80 manat olubsa, biz sizə hər 100 dollara görə 5 dollar da əlavə pul ödəyəcəyik. Əgər dollar 1.50 manatdırsa, o zaman siz bizdən dollar istəməyəcəksiniz, 1680 manatınızı alıb, gedib bazarda 1.50 məzənnə ilə dollar alacaqsınız və daha çox qazanacaqsınız. Biz qarşıdakı dövrdə bu elastikliyi təmin edə biləcək istiqrazlar çıxaracağıq. Gələcək üçün planlaşdırdığımız yeni istiqraz formalarından biri də budur.

**"Mən neftin qiymətinin ucuzlaşdığı bir dövrdə Azərbaycanın "TANAP", "Petkim", "Star Rafinerisi", "Cənub Qaz Dəhlizi" layihələrini yüksək qiymətləndirirəm"**

SOCAR olaraq Azərbaycan kapital bazarının inkişafı üçün belə bir yola çıxdıq və sadəcə öz qazancımız üçün deyil, ölkənin xeyrinə olan bir addım atmaq istəyirik. Dollarla, manatla, dollara indekslənmiş manatla istiqrazlarımız olacaq. Bunun ardından istiqrazlar səhmə də çevrilə bilər. Yetər ki, Azərbaycan kapital bazarı o həddə qədər inkişaf edə bilsin.

***- Ali bəy, mediada belə söz-söhbət gəzir ki, SOCAR-ın yüksək faizli kreditləri var və daxili kreditlərin ödənilməsində də çətinlik yaşanır. Vaxtaşırı olaraq jurnalistlər SOCAR rəhbərliyinə də bu sualı verirlər. Proseslərə kənardan baxsaq, bir mütəxəssis kimi SOCAR-ın maliyyə durumunu necə qiymətləndirirsiniz? Kreditlərlə bağlı səslənən bu iddiaları bölüşürsünüzmü?***

- Təbii ki, bu müddətdə bizdən də bu haqda soruşdular, mən də təbii olaraq vəziyyətlə maraqlandım. İndi SOCAR-ın bütün fəaliyyətlərini təqib edirəm. "Yüksək faizli kreditləri var" ifadəsi doğru deyil. Çünki kredit alındığı dövrdəki bazar şərtləri ilə kredit alınıb. Bazarda şərtlər indi daha da aşağı düşdüyü üçün, əvvəlki şərtlər daha yüksək görünür. Halbuki onlar zamanında çox aşağı faizlərlə alınmış kreditlər idi. Bu səbəbdən faizlərə çox yüksəkdir demək doğru deyil. Bundan başqa, "SOCAR çox borcludur" - deyirsinizsə, o da doğru deyil. Bu qədər böyük bir neft şirkətinin çox böyük layihələri var. Onların vəsaitlə təmin olunması üçün müddət müxtəlif yerlərdən kredit alınmasına, istiqraz satılmasına, avrobondların satılmasına, beləliklə vəsait cəlb edilməsinə ehtiyac var. Lakin o pulların yatırıldığı layihələr hazırda tikinti mərhələsindədir və bir qismi bitmək üzrədir. Hər bitən layihə özü ilə bərabər SOCAR-a yeni gəlir olaraq qayıdacaq. SOCAR hər il o layihələrdən pul qazanacaq və o zaman bu alınmış kreditlər, satılmış istiqrazlar ödənəcək və SOCAR-ın kreditləri azalacaq. Mən neftin qiymətinin ucuzlaşdığı bir dövrdə Azərbaycanın "TANAP", "Petkim", "Star Rafinerisi", "Cənub Qaz Dəhlizi" layihələrini yüksək qiymətləndirirəm. Bu gün bunlar kredit olaraq görünür. Ancaq bu günün kreditləri sabahın qazancına çevriləcək. Əgər bu gün bu cür yatırımlar etməsəniz, gələcəkdə neftin qiyməti daha da ucuzlaşarsa, neftdən gələn gəlir azalacağı təqdirdə bu sadəcə SOCAR üçün yox, Azərbaycan iqtisadiyyatı üçün də mənfi nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən bu investisiyalar Azərbaycanın gələcəyi baxımından olduqca müsbət haldır və bu layihələrin həyata keçirilməsi üçün atılan maliyyə addımları da normaldır. Mən öz adıma deyirəm ki, hər hansı bir risk görmürəm. Yox, əgər neftin qiyməti 5 dollara düşərsə, o zaman zatən dünya başqa bir şey haqqında danışacaq. Mən onu da gözləmirəm, neftin qiyməti ən pis halda 40-45 dollar civarında qalacaq, gələn ildən etibarən 55-60 dollardan da yuxarı çıxacaq.



**"Neftin qiyməti ən pis halda 40-45 dollar civarında qalacaq, gələn ildən etibarən 55-60 dollardan da yuxarı olacaq"**

***- Elə növbəti sualımız da o idi ki, yaxın dövr üçün neftin qiymətini necə proqnozlaşdırırsınız?***

- Neftin qiymətinin 30 dolların altına düşməsi artıq doğru qiymətləndirmə deyil. Bu yaxınlarda neft 52 dollara qədər bahalaşdı. 52 dollar neftin qiyməti üçün hazırkı mərhələdə yüksək qiymət sayıla bilər. Çünki hər yerdə neft hasilatının həddindən artıq olması problemi var. Amerikadakı şist nefti istehsalçıları da bu qiymətə endiyi zaman təkrar istehsala başlayırlar. O baxımdan bu səviyyədəki qiymət qorunub saxlanılmayacaq. Neft gələn il 45 dollar və ondan bir qədər də aşağı düşə bilər. Ancaq neftin qiyməti düşdüyü və neftin axtarış və istehsalına qoyulan yatırımlar azaldığı üçün 2017-ci ildə 50-55 dollara yüksələ bilər, 2018-ci ildə isə biz neftin 60 dollardan yuxarı olduğunu görə biləcəyik.

***- Bəs, qaz layihələrinin nə zaman gəlir gətirəcəyini gözləyirsiniz?***

- Qaz layihələri texniki baxımdan TANAP-a bağlıdır. TANAP-ın da 2017-ci ildə bitirilməsi planlaşdırılır. Orada işlərin gecikmədiyini və planlaşdırıldığı kimi getdiyini bilirəm. TANAP hissəsi 2018-ci ildən etibarən işlək vəziyyətə gələcək..

***- İstiqraz mövzusuna qayıdaq. İkinci əl istiqrazlarda xarici vətəndaşların daha çox istiqraz almasını gözləyirsinizmi? Belə olarsa, bunun Azərbaycan üçün mənfi təsiri olacaqmı?***

- İnşallah xaricilər çox istiqraz alarlar və Azərbaycan vətəndaşları ikinci bazarda istiqrazlarını onlara sata bilər. Çünki satdığı zaman artıq gəlir götürəcəklər. Bunu başdan izah edim. Oktyabrın 10-na qədər istiqraz alan vətəndaşlar 5 faiz gəlir əldə edəcəklər və ikinci bazarda istədikləri zaman bizə 1000 dollardan sata biləcəklər. Faizdən imtina etməyə ehtiyac olmayacaq, biz faizin də bir hissəsini ödəyə bilərik. Vətəndaş bununla bağlı narahat olmasın. Əcnəbilərin bazara gəlişi də gözlənilir, bizə İngiltərə, Polşa və Türkiyədən ciddi alım tələbləri gəldi, çünki 5 faiz gəlir əcnəbilər üçün həqiqətən yaxşı bir gəlir faizidir. Bu gün xarici ölkələrdə mənfi faizlə istiraz satan, əmanət cəlb edən banklar var. Əgər Avropa Mərkəz Bankına pul qoymusunuzsa, bir ilin sonunda 0,40 faiz banka cəza ödəməli olacaqsınız. 1000 dollar yatırımınız varsa, 4 dollar Avropa Mərkəzi Bankına cəza ödəyirsiniz, 996 dollar geri alırsınız. Belə bir halda, 1000 dollara 50 dollara qazana biləcəyinizi belə-belə 4 faiz cərimə ödəmək istəyərsinizmi? O baxımdan mən xaricilərin marağının böyük olacağını gözləyirəm. Türkiyədən də soruşurlar ki, biz istiqraz ala bilərikmi? Əlbəttə, ikinci mərhələdə hər kəs ala bilər. Buradakı investisiya şirkətlərindən və ya müvafiq banklardan ala bilərlər. Ancaq onlar həmin il 5 faizlik gəliri qazana bilməyəcəklər. Çünki istiqrazı aldıqları zaman 1000 dollardan baha alacaqlar və il ərzində götürəcəkləri faizi başda itirəcəklər. Əgər xarici vətəndaşlardan gələn tələb artarsa, istiqrazın qiyməti də artacaq. O zaman siz 1000 dollara aldığınız istiqrazı 1030-1040 dollara xaricilərə satacaqsınız. O baxımdan biz əcnəbilərin gəlib ikinci bazarda istiqraz almasını arzu edirik, bu Azərbaycan vətəndaşlarının qazanmasına şərait yaradacaq. SOCAR üçün isə dəyişən heç nə yoxdur. Biz 5 ilin sonunda bu pulu Azərbaycan vətəndaşlarına ödəmək yerinə, Toma, Cona ödəyəcəyik.

***- SOCAR özünün vətəndaşlardan aldığı istiqrazları ikinci bazarda hansı şərtlərlə və kimlərə satacaq?***

- Bu alıcılar banklar da ola bilər, fiziki və hüquqi şəxslər də. Burada artıq bazardakı qiymətlərə uyğun satacağıq. Məhdudiyyət olmayacaq.

***- Bu günə qədərki satışlar necə gedir?***

- Mənim təxmin etdiyim kimi gedir. Başlanğıcda hər kəs gözləmə mövqeyində idi. Ancaq oktyabrın 4-dən etibarən alışlar daha da artır. Bununla da ən yüksək satışa nail olacağımıza inanıram. Satışları əngəlləyən hər hansı səbəb yoxdur. Mən tələbin 100 milyonu ötəcəyini gözləyirəm. Gedişat onu göstərir. Biz 6 aydır bu layihə üzərində çalışırıq. Bir çox qurumu bir araya gətirdik. Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, investisiya şirkətləri, bankların və ölkə Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi cənab Natiq Əmirovun də dəstəyi ilə çox ciddi bir layihəni həyata keçirdik. Mən əməyi keçən, dəstək olan hər kəsə təşəkkür edirəm. Ümid edirəm ki, bu istiqraz sayəsində Azərbaycan kapital bazarları bu ilk və ən kütləvi istiqraz buraxılışından uğurla çıxacaq. SOCAR ölkəyə bir çox sahələrdə fayda verməklə yanaşı, kapital bazarına da fayda vermiş olacaq. Arxamızca başqa şirkətlərin də gəlməsi bizim uğur qazandığımızı sübut edəcək.

***- Ali bəy, müsahibə üçün təşəkkür edirik.***

- Mən sizə təşəkkür edirəm.

**Azər AYXAN**
**Nərgiz LİFTİYEVA**
**Foto: Məğrur MƏRD**

**"SOCAR olaraq Azərbaycan kapital bazarının inkişafı üçün belə bir yola çıxdıq və sadəcə öz qazancımız üçün deyil, ölkənin xeyrinə olan bir addım atmaq istəyirik"**

# "19 milyon dollar mənim üçün heç nədir..."

## Oliqarx "Çovadarov işi"ndə adı keçən iş adamının məhkəməsinə Çindən gəldi; azərbaycanlı milyarder məhkəmədə şeir demək istədi...

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun cinayət işində zərərçəkmiş kimi adı keçən iş adamı İlham Qasımovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə prosesində azərbaycanlı milyonçu Gülağa Qəmbərov ifadə verib. O, İlham Qasımovun cinayət işində zərəçəkmiş şəxs kimi tanınıb.

Rusiyada yaşayan milyonçu ifadəsində ona ümumilikdə 19.5 milyon dollar zərər dəydiyini bildirib.

**Bakıya oktyabrın 7-də gəldiyini deyən G.Qəmbərov ifadəsində həbs edilən İlham Qasımovla münasibətlərindən və ona verdiyi milyonların taleyindən danışıb:** "Çindən saat 8-də gəlmişəm. Məhkəmədə ifadə verib, axşam da təyyarə ilə geri qayıdacam. Əslində işin belə olmasını istəməzdim. İlhamı indi də burada görəndə pis oluram. Pulları İlhama bir ay ərzində vermişəm. Ümumilikdə 19 milyon 500 min dollardır. Mən bu günə qədər heç bir azərbaycanlı ilə şəriklik etməmişəm. Amma İlhamla tanış oldum, o, mənim ürəyimə girdi, etdiyi təklifi qəbul etdim. Sonra aramızda problemlər yarandı".

**Milyonçu deyib ki, İlham Qasımovdan şikayətçi olmasına əsas səbəb tanımadığı şəxslərin onun yanına gələrək pul tələb etməsi, onlara borclu olduqlarını deməsi olub. G.Qəmbərov deyib ki, Moskvada ofisinə gələn xeyli insan ondan pul tələb edib**: "Bina tikintisi aparacaqdıq. Sonra tikilən evlər bir neçə nəfərə satıldı. Şikayətçilər də mənim üstümə gəlirdi. İlk verdiyim 10 milyon dollara bina tikilməli idi. Bina tikilə-tikilə evlərin satılacağını deyirdi. Ancaq bunun qanunla da qadağan olunduğunu düşünüb, belə olmamasını istədim. Evlərin tikildikdən sonra satılmasını istədim. Əlavə olaraq 3 milyondan artıq pul verdim. Sonra "Nizami" metrostansiyasının arxasında yarımtikili bir ərazini mənə göstərib, orada da bina inşa edə biləcəyimizi dedi. Həmin yerin ona məxsus "Real" MTK-ya aid olduğunu dedi. Bunun üçün də pul ayırdıq".

**Milyonçu sonradan aldadıldığını bilib və pulunu geri tələb edib. Bu işlərin üstü isə G.Qəmbərovun dediyinə görə, dostu Cəbrayılla danışıqdan sonra açılıb:** "Bakıda olan yaxın dostum Cəbrayılla məsləhətləşdim. Belə bir adamla iş gördüyümü dedim. Və "Nizami" metrostansiyasının arxasında olan həmin ərazini aldığımızı söylədim. Dostum dedi ki, həmin ərazi problemlidir. Həmin yerə əl qoymamağı məsləhət bildi. Dedi ki, həmin yerin sahibi Şakir adlı şəxs olub və çox adama qarşı dələduzluq etdiyinə görə həbs edilib. Bir müddət sonra isə həbsxanada ölüb. Mən daha sonra araşdıranda bildim ki, həmin ərazi İlhamın deyil. Ardınca belə problemlər artmağa başladı. Mən beləliklə də aldadıldığımı bildim. Pulumu tələb etdiyim üçün isə hədələndim, söyüldüm. 19 milyon 500 min dollar pul verəsən, sonra da səni söyələr, ailəni təhdid edələr".

G.Qəmbərov İlham Qasımovun ona pulunu qaytaracağı ilə bağlı vəd verdiyini deyib. İlham Qasımovdan alacağı pulla kimsəsizlər evi tikdirəcəyini deyən milyonçu prinsipial adam olduğu üçün işin sonuna qədər gedəcəyini söyləyib.

**Apardığı araşdırmalardan sonra İlham Qasımovun dələduzluq əməlləri barədə məlumatlar əldə etdiyini deyən oliqarx bundan sonra Azərbaycanda vəzifəli şəxslərlə görüşüb:** "Mən baxdım ki, xeyli sayda insan İlham Qasımovdan şikayətçidir. Amma mən İlhamı çox yaxşı bir insan, iş adamı kimi tanımışam. Azərbaycanda saytlarda, mətbuatda onun barəsində şikayət dolu xəbərlər oxudum. Bakıya gələndə dövlət orqanlarına, vəzifəli şəxslərə müraciət etdim. Bundan sonra onun barəsində tədbir görüldü, İlham həbs edildi".

**Azərbaycanda yüksək vəzifəli şəxslərlə münasibətlərinin olduğunu, dövlətçiliyə xidmət etdiyini deyən oliqarx İlham Qasımovu əfv etməsi üçün indi də gec olmadığını deyib:** "Mən həmişə dövlətçiliyə xidmət etmişəm. Xeyirxah işlərlə məşğul olmuşam. Məni tanıyan hər kəs bunu bilir. Dövlət proqramlarının icrasında, müəssisələrin tikilməsində ölkəm üçün pulumdan keçmişəm. I Avropa Oyunlarının təşkilinə də 8 milyon pul vermişəm. Həmişə də dövlətimə, millətimə sadiq olmuşam. Mən düşünürdüm ki, indi də gec deyil. İlham heç olmasa, 1 milyon gətirib, üzr istəsəydi, səhv etdiyini desəydi, mən onu bağışlaya bilərdim. Amma İlham söyüş söyüb ki, mənə 1 manat da verməyəcək. Mən də bu işin sonuna qədər gedəcəm. Nə qədər pul alsam da uşaq bağçası, kimsəsizlər evi tikdirəcəm. Pul mənim üçün sadəcə yaşamaq üçün vəsaitdir".

**İlham Qasımovla aralarında "Odlar Yurdu" MTK-nın yaradılması ilə bağlı razılıq da əldə edildiyini deyən oliqarx bu işin alınmamasından çox sevindiyini və hətta Qurban kəsdiyini də deyib:** "Yaxşı ki, "Odlar Yurdu" MTK təsis edilsə də, sonradan işlər dayandı. Qurban kəsdim ki, yaxşı ki, iş alınmadı. Yoxsa 60-70 milyonum da belə gedəcəkdi. Evlər tikiləcəkdi, bir ev 4-5 nəfərə satılacaqdı".

**İlham Qasımovun vəkili azərbaycanlı oliqarxın təqsirləndirilən şəxsə nə qədər pul verdiyini dəqiqləşdirmək üçün ona suallar verib. Oliqarxın cavabı isə belə olub:** "Siz mənim pulumu saymayın. Müdafiə etdiyiniz şəxsin həbsdən çıxarılmasına çalışın. Belə sualları da mənə verməyin. Mən halal adamam. Ancaq öz pulumu tələb edirəm. Siz mənim şeirlərimə qulaq assanız, necə bir insan olduğumu görərsiniz. Bakıya gələndə təyyarədə şeir yazmışam. Məhkəmə icazə versə, onu burada oxuyardım".

Hakim milyonçunun bu istəyini qəbul etməyib.

Məhkəmədə təqsirləndirilən İlham Qasımov oliqarxın çıxışına münasibət bildirmək üçün söz istəyib. Oliqarx Gülağa Qəmbərovla iş adamı olan bir dostu vasitəsi ilə tanış olduğunu, onu çox yaxşı bir insan və biznesmen olaraq bildiyini deyib: "Türkiyəli iş adamı dostum vasitəsi ilə Gülağanı tanıdım. Bir yerdə çörək yeyib, tanış olmuşuq. Onu çox yaxşı bir insan kimi tanımışam. İşini əla bilən bir biznesmen idi. Ancaq bir məsələ var ki, hər kəsə asanlıqla inanır. Mən onun var-yoxuna da söyməmişəm. Bunu kişi kimi deyirəm".




İ.Qasımov oliqarxla aralarında yaranan problemlərin günahkarı kimi digər iş adamlarını göstərib: "Bizim Gülağa ilə heç bir problemimiz yox idi. İşlər qaydasında gedirdi. Amma beziləri aramıza girdi. Görürdülər ki, biz birlikdə çox yaxşı işlər görürük. Qorxdular ki, bütün işləri biz edərik. Bu işlərdən əlavə dəniz kənarlarında ərazilərə baxdıq. Yeni işlər görəcəkdik. Ancaq aramıza girib, bizi düşmən elədilər. Yalandan Gülağaya dedilər ki, İlham səni aldadır. Araya bir iş adamı girdi. O, Gülağadan 6 milyon aldı. Sonra həmin adamı "Beynəlxalq Bank işi"nə görə həbs elədilər. Həmin pul da batdı. Sistemi elə qurdular ki, biz düşmən olaq".

**Məhkəmə prosesi oktyabrın 13-də davam etdiriləcək.**

Qeyd edək ki, təqsirləndirilən İlham Qasımov elan olunan ittihamla özünü günahkar bilmədiyini deyib. Xatırladaq ki, İlham Qasımov "Real" MTK-nın rəhbəri olub. O, Cinayət Məcəlləsinin 178 (dələduzluq), 308.2 (vəzifə səlahiyyətlərindən sui istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

**İlham Qasımov MTN generalı olmuş Akif Çovdarovun cinayət işində zərərçəkmiş kimi tanınmış şəxslərdən biridir.**

A.Çovdarov və onunla birlikdə həbs edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun cinayət işinə Bakı Hərbi Məhkəməsinin hakimləri tərəfindən baxılır.

❑ **İlkin MURADOV**



# "MTN işi"nə görə həbs edilən rabitəçi azadlığı pulla alıb?

## Fətullah Seyidov mənimsədiyi 130 min manatı ödəyib

**Ötən ilin sonunda Eldar Mahmudovun MTN rəhbərliyindən uzaqlaşdırılmasından sonra başda rabitə naziri Əli Abbasov olmaqla, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində sabiq nazirə yaxınlığı ilə bilinən bir neçə şəxs vəzifələrindən azad olunaraq həbs edildi.**

Xüsusilə vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə və dövlət əmlakını mənimsəmədə təqsirləndirilərək həbs edilənlər arasında Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) yüksək vəzifəli şəxsləri də var idi.

"Yeni Müsavat"a daxil olan məlumata görə, onlardan ikisi azadlığa buraxılacaq. Həmin şəxslər "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin Nizami telefon qovşağının rəisi olmuş Fətullah Seyidov və qovşağın baş mühasibi işləmiş Rəşad Məmmədovdur.

Əldə etdiyimiz məlumata görə, adaları qeyd olunan şəxslər hələ azadlığa buraxılmasa da, bunun üçün işlər aparılır. Onların yaxın günlərdə sərbəst buraxılacağı istisna deyil. Belə ki, iddia olunur ki, Fətullah Seyidov artıq mənimsədiyi 130 min manatı ödəyib. Bundan başqa ondan azadlığa çıxması üçün vurduğu zərərdən daha böyük məbləğdə pul ödəməsinin tələb olunduğu da iddia olunur. Məlumata görə, həmin pulları ödəmək üçün F. Seyidov Bakı şəhərində (Həmid Araslı küçəsi) yerləşən mənzilini də satıb.

Rəşad Məmmədovun azadlığa çıxmasında səbəb isə istintaq nəticəsində onun hər hansı ciddi qanun pozuntusuna yol vermədiyinin aşkarlanmasıdır.

Məlumata görə, Fətullah Seyidovun BTRİB-in sabiq direktoru, hazırda həbsdə olan Beytulla Hüseynovun da yaxın adamı olub. Onların tələbəlik illərindən sonra Naxçıvanda birlikdə işləməsi ilə bağlı da faktlar var.

Lakin iddia olunur ki, "MTN işi" əsasında həbs edilən rabitəçilərdən yalnız Fətullah Seyidov və Rəşad Məmmədov azadlığa buraxılacaq. Digər şəxslərin isə həbsdən azad edilməsi gözlənilmir. Buna səbəb onların külli-miqdarda dövlət əmlakını mənimsəmələri və digər cinayət əməllərinin olmasıdır.

Digər məlumata görə, artıq Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) həbsdəki Aparat rəhbəri Vidadi Zeynalovun ailəsi ilə görüşünə qadağa qoyulub. O, hər gün ailəsi tərəfindən göndərilən yeməyi də qəbul edə bilmir...

**Qeyd edək ki, təqsirləndirilən şəxslər ləğv edilmiş MTN-in sabiq rəhbəri Eldar Mahmudov vəzifədən kənarlaşdırıldıqdan sonra həbs edilmişdilər. Onlar Cinayət Məcəlləsinin 179.1 (mənimsəmə), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunurdular.**

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

# "Azərbaycana şok terapiyası yox, şoksuz terapiya lazımdır"

## Əli Məsimli: "İslahatların səmərəsini artırmaqdan ötrü korrupsiya, inhisarçılıq və məmur özbaşınalığına, dələduzluğa qarşı mübarizə gücləndirilməlidir"

**Son günlərin ən aktual mövzusu referendumdan sonrakı islahatlarla bağlıdır. Hər ötən gün isə Azərbaycanın valyuta ehtiyatlarının azalması, paralel olaraq əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi, bahalığın tüğyan etməsi ilə müşayiət olunur. Ona görə də ekspertlər hesab edir ki, kritik vəziyyətin yaranmaması üçün təcili addımlara ehtiyac var. Deputat, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli ilə bu barədə danışdıq.**



***- Əli bəy, islahatlarla bağlı gözlənilənlər nə zaman reallaşacaq, sizdə bununla bağlı hansısa məlumat varmı?***

- Məlum daxili səbəblər, eləcə də beynəlxalq aləmdə cərəyan edən meyllər, yeni təhlükə və çağırışlara vaxtında cavab vermək zərurəti Azərbaycanda islahatların yeni mərhələsinə başlamaq, həm də sıradan bir yox, çox geniş və əhatəli islahatların aparılmasını obyektiv zərurətə çevirib. Hazırkı reallıqlar şəraitində islahatların alternativi yoxdur, çünki bundan kənar bütün yollar uğursuzluq zolağına, sosial gərginliyə və qeyri-müəyyənliyə aparar. Bu baxımdan Azərbaycanda islahatlar qaçılmazdır. Bu ilin əvvəllərində həmin islahatlar istiqamətində addımlar atılmağa başlayıb. Referendumda qəbul olunan konstitusiya dəyişiklikləri yeni mərhələyə keçid islahatlarını sürətləndirəcək, həm də bu prosesə əlavə yeni çalalar gətirəcək. İslahatların sürəti üstümüzə gələn problemlərin sürətindən yüksək olmalıdır ki, həm vəziyyətdən az itki ilə, həm də rəqabət qabiliyyətli halda çıxa bilək. İslahatların siyasi, iqtisadi, hüquqi, sosial, institusional və sair effektləri isə görülən işlərin dolğunluq dərəcəsi və keyfiyyətindən asılı olacaq.

***- Sizcə, prosesə nədən və haradan başlamaq lazımdır?***

- Fikrimcə, referendum islahatları daha çox iki istiqamətdə ön plana çəkəcək: birincisi, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə, müdafiəsinə və cəmiyyətdə sabitliyə əlavə zəmin və təminatların yaradılması; ikincisi, ölkədə həyata keçirilən iqtisadi islahatların səmərəliliyini artırmaqdan ötrü dövlət və iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi, çevik və effektli dövlət idarəçiliyi mexanizminə keçilməsi. Bununla belə, iqtisadi islahatlar daha böyük xüsusi çəkiyə malik olacaq. Bundan ötrü "Strateji yol xəritəsi" hazırlanıb. "Yol xəritəsi"ndə Azərbaycan iqtisadiyyatının 8 prioritet sektoru əsas götürülüb. Bura 4 istehsal sektoru - neft, qaz, kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma, 2 xidmət sektoru - ixtisaslaşmış turizm, logistika və ticarət və 2 sosial sektor - uyğun qiymətə mənzillər və kompleks məsələ kimi peşə təlimləri sahələri daxildir. Həmin əsas sektorların hər biri üçün ayrıca həm diaqnostik hesabat, həm də "yol xəritəsi" hazırlanıb. Yeni mərhələnin əsas prioritetləri Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artması, yerli tələbatı dolğun şəkildə ödəməklə yanaşı qeyri-neft sektorunun ixrac potensialının artırılması olacaq. Bunların hamısı çox yaxşıdır. Eyni zamanda hesab edirik ki, islahatların səmərəsini artırmaqdan ötrü korrupsiya, inhisarçılıq və məmur özbaşınalıqlarına, eləcə də iqtisadi və digər sferalarda dərin kök salmış dələduzluğa qarşı mübarizə gücləndirilməlidir. Çünki bu dörd problemi həll etmədən islahatların səmərəliliyini yüksəltmək olmaz. Bununla yanaşı, iqtisadi inkişafın yeni mərhələsinin tələblərinə cavab verən islahatların sosial-iqtisadi və digər nəticələrinin yüksəldilməsi eyni zamanda siyasi və cəmiyyət həyatının digər sahələrində də islahatları labüd edib. Çünki yaşadığımız dünyada əsas insan və vətəndaş hüquqları və azadlıqlarını dövrün tələbləri səviyyəsində təmin etmədən nə idarəetmə sisteminin səmərəliliyini, nə də ölkənin etibarlı təhlükəsizliyini və davamlı sabitliyini təmin etmək olar. Eyni zamanda postsovet məkanını təcrübəsi göstərir ki, dövlətçiliyi yetərincə möhkəmləndirmədən liberal islahatların gedişində həmin dəyərlərdən sui-istifadə halları dövlətçiliyə ciddi zərbələr vurur və müstəqilliyi təhlükə altına salır. Ona görə də təkamül yolu ilə bu sahədə atılan addımlar kombinasiya halında bir-birini elə tamamlamalıdır ki, həm dövlət möhkəm olsun, həm də liberal islahatlar onu daha da möhkəmləndirsin. Yəni güclü və demokratik Azərbaycan naminə bu islahatlar iqtisadi azadlıqlara geniş meydan verməklə, müstəqil Azərbaycan dövlətinin möhkəmliyinə və ümumxalq rifahına yönəlsin. Bu iki məsələnin optimal kombinasiyasına nail olunması dünya düzəninin hazırkı sərt reallıqları şəraitində Azərbaycanın perspektivləri baxımından strateji əhəmiyyət kəsb edir.



**"Dövrün tələblərinə uyğun islahatları həyata keçirməyə qadir komanda formalaşdırılmalıdır"**

***- Deməli, sovet termini ilə desək, qarşıya kifayət qədər ciddi öhdəliklər qoyulub. Möbcud komanda bunun öhdəsindən gələ biləcəkmi?***

- Müasir dövrün tələbləri ilə ayaqlaşmaqdan və iqtisadi inkişafı yenidən sürətləndirməkdən ötrü beynəlxal təcrübədə böyük aktuallıq kəsb edən "yaxşı idarəetmə" və optimal tənzimləmə üsullarına keçilməsi obyektiv tələbata çevrilib. Ona görə də iqtisadi islahatlar sahəsəndə atılacaq addımlar arasında struktur islahatlarının sürətləndirilməsi məsələsi xüsusi yer tutacaq. Bu baxımdan konstitusiya dəyişiklikləri arasında ən çox diqqətçəkən məqam birinci vitse-prezident, vitse-prezidentlər institutlarının yaranması məsələsidir. Bu, ölkədə idarəetmənin təşkilatı quruluşunun həm struktur, həm də ciddi kadr islahatları ilə müşayiət olunacağına əsaslar yaradıb. Əhalisi 10 milyon nəfərin altında olan Azərbaycan üçün 19 nazirlik və bir o qədərə yaxın da komitə, baş idarə, xidmət və sairin olması dövlət idarəçiliyinin səmərəlilyini aşağı salan, artıq xərc, artıq yük və inersiyalı inkişaf yoludur ki, artıq bundan irəli getməyə imkan vermir. Bu sahədəki struktur islahatlarını genişləndirməklə optimal ölçülü və çevik hökumət modelinə keçilməsi çox zəruridir. Bu baxımdan paralel fəaliyyət göstərən dövlət qurumlarının, həmçinin bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdulaşdırılması, digərlərinin birləşdirilməsi istiqamətində işlər sürətlənəcək. Vitse-prezidentlik institutunun optimal vaxt kəsiyində özünü doğrultmasından ötrü, bir tərəfdən onun fəaliyyətinin işlək mexanizmi hazırlanmalı, digər tərəfdən isə bu yeni institutun Nazirlər Kabineti ilə qarşılıqlı münasibətin və fəaliyyət dairəsi istiqamətində əlavə hüquqi-normativ sənədlər qəbul edilməlidir. Bu həm də Nazirlər Kabinetinin işinin yenidən qurulmasını, hazırkı şəraitdə onun yeri və roluna yenidən baxılmasını tələb edəcək. Bütövlükdə götürdükdə sözügedən sahədəki köklü islahatlar iqtisadiyyatın tənzimlənməsində dövlətin yeni rolunu ortaya çıxacaq.

**"Paralel fəaliyyət göstərən dövlət qurumlarının, həmçinin bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdulaşdırılması, yaxud birləşdirilməsi istiqamətində işlər sürətlənəcək"**

***- Sovet zamanında hesab olunurdu ki, ölkə iqtisadiyyatını dirçəltmək üçün şok terapiyasına ehtiyac var. Hətta bununla əlaqədar konkret proqramlar var idi. Çətin dövrünü yaşayan Azərbaycan iqtisadiyyatına necə, şok terapiyası lazımdırmı?***

- Azərbaycan iqtisadi inkişafda neft amilinin üstünlük təşkil etdiyi mərhələdən post-neft mərhələsinə keçir. Belə keçidin asan yolu yoxdur. Həm də Azərbaycanda qeyri-neft sektoru lazımi səviyyədə inkişaf etmədiyindən, bu sahənin ixrac göstəriciləri çox aşağı düşdüyündən, bir sıra məhsullar üzrə idxaldan asılılıq güclü olduğundan bizdə bu proses çox ağrılı gedir. Post-neft mərhələsinə keçid tam o qədər olmasa da, təqribən mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçid zamanı zəruri olan keçid dövrü kimi yeni bir keçid mərhələsinin yaşanılmasını, bu, isə öz növbəsində yeni mərhələnin tələblərinə uyğun köklü islahatları zəruri edib. Sizin dediyiniz şok terapiyası ideyası daha xeyli dərəcədə burdan qaynaqlanır. Amma biz hesab edirik ki, post-sovet məkanına aid olan ölkələrin çoxu kimi Azərbaycan da ötən əsrin 90-cı illərində mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçid zamanı şok terapiyası yox, terapiyasız şok mərhələsi yaşayıb. Və bunun sosial-iqtisadi itkiləri çox yüksək olub. Ona görə də bu dəfə Azərbaycana şok terapiyası yox, şoksuz terapiya lazımdır. Şoksuz terapiyanı həyata keçirməkdən ötrü isə hər şeydən əvvəl, dövrün tələblərinə uyğun islahatları həyata keçirməyə qadir komanda formalaşdırılmalıdır...

***- Yəni yeni mərhələyə yeni komanda ilə?***

- Hakimiyyətdə öz işini bilən və vəzifəsinin öhdəsindən layiqincə gələn kadrlar çoxdur. Amma bu fikri hazırda fəaliyyətdə olan bütün komandaya şamil etmək olmaz. Hazırkı şəraitdə irəli sürülmüş "yol xəritəsi"ndəki məqsədlərə vəzifəsinin öhdəsindən layiqincə gələn yüksək ixtisaslı kadrlarla, yeniləşmiş islahatçı komanda ilə çatmaq mümkündür. Bu, islahatların uğurunu müəyyən edən əsas meyarlardan biridir. Bu işdə yerli kadrlar və ekspertlərlə yanaşı, dünyanın tanınmış və islahat təcrübəsi olan professional kadrlarının və ekspertlərin xidmətlərindən də müxtəlif yöndə istifadə edilməsi məqsədəuyğun olardı. Çünki kadr hər şeyi həll edə bilməsə də, çox şeyi həll edə bilir. Azərbaycanın əhalisinin sayına nisbətdə potensialı yetərincə güclü olduğundan, islahatlara əngəl olan məmurların kənarlaşdırılması, kadr potensialının gəncləşdirilməsi və müasir tələblərə cavab verən kadrlar hesabına "strateji yol xəritəsi"ni dolğun şəkildə gerçəkləşdirməklə inkişafın yeni mərhələsinə çıxmaq olar. Tədricən yeni islahatçı komandanın formalaşdırılması, iqtisadi azadlıqların genişləndirilməsi, sahibkarlığın qarşısındakı bütün maneələrin aradan qaldırılması ilə buna nail olmaq mümkündür. Bu isə öz növbəsində neftdənkənar sahənin sürətli inkişafına, rəqabət qabiliyyətinin artırılmasına, yerli tələbatın ödənilməsinə və ixracatda aparıcı rol oynamasına, eləcə də ölkə əhalisinin sosial durumunun müasir tələblər səviyyəsində təmin olunmasına şərait yarada bilər.

***- Parlamentin iclasında banklardakı soyğunçuluqdan danışdınız. Bəs, bank soyğunçuluğa nə zaman son qoyulacaq?***

- 2015-ci ildəki iki şok devalvasiya iqtisadiyyatda, xüsusən də bank sistemində olan problemlərin çoxunu üzə çıxardı. Bankların bir hissəsi bərbad vəziyyətdədir. Fikrimizcə, bank sahəsində köklü islahatlar aparmaq lazımdır ki, həmin sistem həm sağlamlaşsın, həm də dediyiniz problemlər birdəfəlik aradan qalxsın. Bundan ötrü aidiyyəti qurumlara göndərdiyimiz məlum Təkliflər Paketinin həyata keçirilməsi işin xeyrinə olardı. Həmin təkliflərin reallaşdırılmasından həm dövlət, həm banklar, həm də əhali və sahibkarlar udar.

***- Əli bəy, bəzi idxal məhsullarına gömrük rüsumlarının artırılması nə vəd edir? Hələ qərar icra olunmamış bahalaşmanın növbəti dalğası başlayıb. Sizcə, bu prosesin qarşısını necə almaq lazımdır?***

- Bu, çox mürəkkəb məsələdir. Belə addımlar atılan zaman bütün amillər nəzərə alınmalı və çoxvariantli ssenarilər hazırlanmalıdır. Əgər biz hansısa məhsuldan tələbatımız səviyyəsində və ondan da artıq istehsal ediriksə, onda həmin məhsula münasibətdə daxili bazar qorunmalıdır ki, yerli istehsalçılar istehsal etdikləri məhsulu həm yerli, həm də xarici bazarda satıb yetərincə qazana bilsinlər. Bunun da yollarından biri gömrük rüsumlarını artırmaqdır ki, xaricdən gətirilən mallar yerli mallardan ucuz olub, yerli istehsalçını bankrot vəziyyətinə salmasın. Yox, əgər biz ölkə daxilində hansısa məhsulu tələbatımızın yarısı qədər istehsal ediriksə, onda belə məhsula münasibətdə gömrük rüsumlarının artırılması təbii ki, qiymət artımına gətirəcək. Xaricdən gətirilən xammal hesabına istehsal olunan məhsulların da qiyməti artacaq. Bu zaman həm də əhalinin ödəniş qabiliyyətli tələbi də nəzərə alınmalıdır ki, qiymətlər sürətlə artmasın. Bu problemin asan yolu yoxdur. Ən etibarlı yol isə yerli istehsalı stimullaşdırıb inkişaf etdirməkdir ki, əhalinin istehlakında ölkədə istehsal olunan məhsulun payı artsın...

❑ **Elşad PAŞASOY**
**Foto: "YM"**



# Uzanıqlı inkişaf üzrə şura

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycanda qanunçuluğun, dövlətçiliyin, canım sənə desin, hüququn necə vəziyyətdə olduğunu anlamaq üçün unikal fürsət var: iki məhkəmə işini izləmək yetər. Bunlardan birində MTN generalı Akif Çovdarov ittiham olunur, o birində isə "Real MTK" adlı tikinti şirkətinin şefi İlham Qasımov. Və İlham Qasımov eyni zamanda Akif Çovdarovun cinayət işində zərərçəkənlərdən biridir! Fantastikadır. Tikinti şirkətinin şefi fırıldaqla, dələduzluqla (ittiham edildiyi maddələr belə deyir) milyonlarla dollar mənimsəyibmiş. Bir evi dörd adama satırmış. Saxta sənədlər düzəldirmiş və sairə. General isə bunu tutub arada soyurmuş. Nəticədə indi "bənna" və reket ikisi də dama salınıbdır.**

Mən şübhə eləmirəm, vaxt gələcək başqa tiplərə də cinayət işi açılacaq, o zaman Akif Çovdarov bəlkə həmin işlərdə zərərçəkmiş kimi qeydiyyata alınacaqdır. Yuxarıda yazdığım kimi, bu, Azərbaycanın ümumi mənzərəsidir: eyni zamanda həm günahkar olursan, həm zərərçəkən. Qazanc deyə bir şey yoxdur, bir-birimizə ata-ata, bir-birimizə torba tikə-tikə öz peyinimizin içində eşələnirik. "Ən böyük biclik düzlükdür" kimi ata sözü olan toplum bu kökə düşməyi haqq eləmirdi.

Həyasızlıq da heyrətamizdir. Keçən il Bakıda poliuretan üzlük çəkilən binalar yandı, azı 16 adam öldü. Bundan sonra dövlət məcbur qərar verdi ki, bu üzlüklər hamısı sökülməlidir, çünki təhlükəlidir. Doğrudan da biz o binaların üzlüyünün necə sürətlə yandığını, yaranan zəhərli tüstünün insanları boğduğunu əyani görmüşük. Ancaq indi həmin üzlüyü buraxan şirkətin müdiri məhkəmədə deyir ki, hadisə qəsdən törədilib, poliuretanı gözdən salmaq istəyən adamlar varmış.

Mən həmin şəxsi əsas günahkar saymıram, yeri gələndə adam lap kartondan da evcik istehsal edər, sənin ağlın olsun, bunu alma. Əsl cinayətkarlar o cür üzlüyə icazə verən, işi təşkil edən və maliyyələşdirən dövlət məmurları idilər, indi də hamısı qıraqda qalıb. Onların adını çəkmək yerinə, yanar üzlüyə haqq qazandırmaq nə deməkdir? Gözümüzlə gördüyümüz ola-ola, deyir gözdən salırlar...

Bütün bunların fonunda ölkə rəhbərliyinin yumor hissinin çox yüksək olması diqqət çəkir. Misal üçün, təzəlikcə "Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması" haqda fərman verildi, bir çox nazirlərin müavinləri də o şuraya üzv edildi. Şura 2030-cu ilədək Azərbaycan üçün prioritet milli məqsədləri, proqramları-filanı müəyyən etməlidir. Təbii, bu şuranın ancaq adındakı "2030" rəqəminə görə yaradıldığını bilirəm. Məqsəd sevgili xalqa və uca tərəfdarlara mesaj verməkdir ki, qəti narahat olmayın, hələ 2030-cu ilə qədər buranın ağası bizik. Yoxsa Azərbaycanın hansı məqsədləri ola bilər? 23 ildir hakimiyyətdə olan sistem ölkənin əsas problemlərini - işğal, iqtisadi tənəzzül, mənəvi deqradasiya və sairə - həll etməyibsə, üstəlik bu problemləri daha dərinləşdirib sağalmaz kimi görünən yaralara çeviribsə, indən belə nə proqram, strategiya, prioritet vəzifə tapılacaq? İnkişaf budursa, bu dayanıqlı olsa nəyə yarayır, böyrü üstdə yıxılsa nədir?

Ən yaxşı yol üstünü basdırmaqdır. Başından vur, səsi gəlməsin. Bu yaxında hüquq-mühafizə orqanlarından birində yüksək rütbəli zabit mənə Azərbaycanın uğurlu sabitliyindən, 92-93-cü illərdəki dərəbəylikdən və sairədən mühazirə oxudu. Mən ona bu dəyərli məlumatlara görə dərin, acizanə minnətdarlığımı çatdırandan sonra bir sual verdim: "Dünyada ən sabit, ən sakit yerin hara olduğunu bilirsinizmi?". Rəisi maraq bürüdü, bəlkə də o, daha bir yolunu azmış zəhmətkeşin aydınlanmasında rolu olduğunu düşünmüşdü, elə güman edirdi mən Azərbaycan haqda danışacağam. Soruşdu ki, bu yer haradır. Mən dedim: "Ən sabit yer qəbiristanlıqdır. Orda nə başını qaldıran var, nə də danışan". İnsafən, zabit bu cavaba görə heç nə demədi.

**Bəlkə də araya çökmüş sükutu pozmaq istəmədi. Otağı nurla dolsun.**

# Təcavüzkara ucuz silah, Azərbaycana ucuz təsəlli?




## Kremldən Bakıya yeni şifrəli mesaj

## "Rus NATO"suna girsəniz..."

### Putinin müşaviri Azərbaycanı KTMT-yə səslədi; Bakının mövqeyi isə bəlli - "Öncə ərazilər!.."; eyni gündə Rusiya prezidenti Ermənistanla ortaq hava hücumundan müdafiə sistemi haqda sənədi təsdiq üçün Dumaya göndərdi - təsadüf?..

**Bakı-Moskva münasibətləri yenə həssas bir dönəmdən keçməkdədir. Bunun birinci səbəbi aprel döyüşlərindən sonra Qarabağ məsələsində Rusiyanın vasitəçiliyinə olan ümidlərin növbəti dəfə qırılmasıdırsa, digəri Kremlin öz forpostuna "İsgəndər" tipli müasir döyüş sistemləri verməsinin üzə çıxmasıdır.**

Beləcə, bu il, nəhayət, Qarabağ nizamlanmasında ciddi dönüş olacağı haqda ən nikbin proqnozlar da fiasko olmaqdadır. Bu cür proqnozlardan biri də Rusiyadakı Siyasi Araşdırmalar İnstitutunun direktoru, prezident Putinin səlahiyyətli şəxslərindən biri, Rusiya prezidenti yanında İctimai Şuranın üzvü, politoloq Sergey Markova məxsus idi. Markov təxminlərinin doğrulmadığını artıq etiraf edib - özü də Bakıda.

"Azərbaycan güclü ordu yaradıb və aprel döyüşlərində də bu, özünü göstərdi. Azərbaycanın üzləşdiyi əsas problem Qarabağ münaqişəsidir. Bu il "Kazan formulu" əsasında Qarabağ münaqişəsinin həllində böyük irəliləyiş əldə oluna bilərdi. Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qaytarılması müqabilində Ermənistanın blokadası aradan qaldırıla bilərdi. Təəssüf ki, bu, mümkün olmadı. Hazırda Ermənistan hakimiyyəti çətin durumla üzləşib, onlar xalqı inandıra bilmirlər ki, bu lazımdır. Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, istənilən vaxt yenidən alovlana bilər. Ona görə də biz münaqişənin həlli istiqamətində səylərimizi artırmalıyıq". Bu fikri o, dünən Azərbaycan prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Azərbaycanın müstəqilliyinin 25-ci ildönümü münasibətilə təşkil etdiyi beynəlxalq konfransın açılışında çıxışı zamanı deyib. Markov İrəvana "İsgəndər" operativ-taktiki raket komplekslərinin verilməsindən də danışıb və əfsus ki, buna bəraət qazandırıb.

Politoloqun sözlərinə görə, Rusiya müxtəlif dövlətlər, o cümlədən münaqişədə olan ölkələrlə hərbi-texniki münasibətlər qurub. Daha sonra o, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT - "Rus NATO"su) üzvü olduğunu xatırladaraq deyib: "Biz Azərbaycanı da bu təşkilatla yaxından əməkdaşlıq etməyə dəvət edirik. Rusiyada güclü erməni lobbisi var. Biz silah satmasaq, ABŞ satacaq. O zaman Azərbaycan və Ermənistan da itirəcək, çünki eyni silahları iki dəfə baha almalı olacaq (Hərçənd Ermənistanın bahalı silahlar almağa imkanlı yoxdur - **red.**)".

***

Beləcə, Putinin müşaviri Qarabağ danışıqlarının növbəti dəfə iflas olması fonunda, faktiki şəkildə, Bakıya Bakıdan şifrəli mesaj ünvanlayıb. "Azərbaycanı da bu təşkilatla ("Rus NATO"su ilə-red.) yaxından əməkdaşlıq etməyə dəvət edirik" açıqlamasının ayrı anlamı yoxdur.

Ancaq Bakının KTMT, Avrasiya İqtisadi Birliyi, Gömrük İttifaqı və digər bu kimi "Putin projeləri"nə qoşulmaqla bağlı mövqeyi çoxdan bəllidir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov azı iki dəfə Rusiya mediasına müsahibəsində bildirib ki, əgər işğal altındakı ərazilərimizin boşaldılmasına başlanılarsa, Azərbaycan Ermənistanla birgə adə çəkilən qurumlarda təmsilçilik məsələsinə baxa bilər. Bundan aydın mesaj?

Bu üzdən top Azərbaycanın yox, Rusiyanın tərəfindədir. Əfsus ki, Rusiyanın aprel döyüşlərindən sonra Qarabağ məsələsində özünü göstərən diplomatik fəallığı, "Kazan formulu" ilə bağlı xarici işlər naziri Sergey Lavrovun Bakı və İrəvana səfərləri lazımi nəticəni vermədi, çünki davamı gəlmədi. Danışıqlar prosesi faktiki surətdə yenidən donduruldu.

Belə vəziyyətdə Bakının birtərəfli qaydada, qeyd-şərtsiz "Rus NATO"suna maraq göstərməsi, Putinin müşavirinin dediyi kimi, onunla "yaxından əməkdaşlıq eləməsi" qeyri-mümkündür. Bu, müstəsna olaraq Kremlin və İrəvanın maraqlarına işləyər, yalnız onlara divident gətirərdi, işğal rejiminə isə haqq qazandırmaq anlamı verərdi. Azərbaycan buna heç vaxt getməz. Öncə Qarabağ, torpaqlar...

***

Diqqətçəkicidir ki, Bakıda Azərbaycanın müstəqilliyinin 25 illiyi ilə bağlı beynəlxalq konfransın keçirildiyi gün, yəni dünən Rusiya prezidenti Vladimir Putin Ermənistanla vahid hava hücumundan müdafiə sisteminin yaradılması ilə bağlı razılaşmanı ratifikasiya üçün Dumaya təqdim edib. Bu barədə informasiyanı Rusiya Dumasının mətbuat xidməti yayıb. Dünən həm də Putinin ad günü idi və ona Bakıdan, azərbaycanlı həmkarı İlham Əliyevdən təbrik zəngi gəlmişdi...

Yada salaq ki, tərəflər arasında bu müqavilə 23 dekabr 2015-ci ildə Moskvada imzalanıb. İyun ayında Ermənistan parlamenti vahid sistemin yaradılması haqda müqaviləni təsdiq edib. Bu müqavilənin qüvvəyə minməsi ilə Rusiya işğalçı Ermənistanın təhlükəsizliyinə daha bir qarant vermiş olur. İşğalçı ölkə isə özünə ən böyük təhlükəni haqlı olaraq, Azərbaycandan gözləyir - Qarabağa görə...

Yeri gəlmişkən, yenə məhz dünən Ermənistanda Rusiya hərbi bazası və Ermənistan silahlı qüvvələrinin birgə taktiki təlimləri başlayıb. Bu barədə "Report" "Sputnik-Ermənistan"a istinadən xəbər verib. Rusiya Cənub Hərbi Dairəsinin mətbuat xidmətindən verilən məlumata görə, hərbi təlimlər qoşunların birləşmiş qruplaşmalarının komandanı, erməni general Andranik Makaryanın ümumi rəhbərliyi altında keçirilir.

Bundan başqa, Azərbaycanın işğal altındakı ərazilərində də neçə gündür təlimlər gedir - hansına ki, ATƏT-in Minsk Qrupunu 3 həmsədrindən biri kimi Rusiya da heç bir etiraz bildirməyib. Doğrudur, Rusiya Azərbaycan da silah verir. Ancaq dünya qiymətinə. Yəni bundan ən əvvəl özü yaxşı maliyyə əldə edir. Eyni zamanda bölgədə bu yolla guya hərbi balansı qorumağa çalışır - ki, Qarabağ münaqişənə həlledici təsir imkanları əlindən çıxmasın. Nə vaxta kimi?

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

# Bu gün Gürcüstanda parlament seçkiləridir

## Saakaşvili Azərbaycan müxalifəti ilə müqayisədə üçüncü dəfə seçkilərdə qalib gələ bilər

**Bu gün Gürcüstanda keçiriləcək seçkilər dünyada olduğu kimi, Azərbaycanda da maraqla izləniləcək. Proqnozlara əsasən, gürcü müxalifəti seçkilərdə cüzi fərqlə olsa da, qalib gələcək. Proqnoz doğrularsa, bu o deməkdir ki, eks-prezident Mixail Saakaşvili Vahid Milli Hərəkat Partiyası ilə müxalifət lideri kimi 3-cü dəfə qonşu ölkədə qalib gələcək.**

İlk dəfə Saakaşvili 2003-cü ilin oktyabrında Gürcüstanda keçirilən parlament seçkilərinin saxta nəticələri ilə bağlı baş verən "Qızılgül inqilabı"nda sonrakı prezident seçkilərində qalib gəlib. İkinci dəfə 2008-ci ilin yanvarında keçirilən növbədənkənar prezident seçkilərində Saakaşvili qələbə qazanıb. Bugünkü seçki isə onun üçüncü qələbəsi kimi gürcü tarixinə yazıla bilər.

Bu tarix yazılarsa, Gürcüstan müxalifəti son 13 ildə Azərbaycan müxalifəti ilə müqayisədə 3-cü dəfə öz ölkələrində qalib olacaqlar.

**Politoloq Qabil Hüseynli** Saakaşvilinin bugünkü seçkilərdə qalib gəlmə imkanları və Azərbaycan müxalifətinin uğursuzluqları ilə bağlı bunları dedi: "4 il öncə Gürcüstanda hakimiyyətə gələn indiki qüvvələr verdikləri vədlərin böyük əksəriyyətini yerinə yetirə bilmədilər. Üstəlik də ciddi siyasi qarşıdurmalara rəvac verdilər. İndinin özündə seçki mühitini demokratiyadan uzaqlaşdırmaq üçün cəhdlər edilir. Bütün bunlar səslərin Saakaşvili tərəfinə keçməsinə səbəb olur. Üstəlik Gürcüstanda əhalinin siyasi fəallığı, mədəniyyəti daha yüksəkdir və demokratik dəyərlər də oturuşub. Bundan əlavə, Saakaşvilinin yenidən hakimiyyətə gəlməsi üçün bəzi ölkələr dəstək verir. Bu dəstək özünü müxtəlif formalarda təzahür etdirir. Partiyasına yardım edilir, şəxsiyyətinin yüksək şəkildə təbliğ olunması həmin qəyyumlar tərəfindən həyata keçirilir. Saakaşvili cəmiyyətdə dərin izlər də buraxıb. Rüşvət və korrupsiyaya qarşı sərt mübarizənin təməli onun dövründə qoyulub. İndiki hakimiyyətin dövründə Gürcüstanda bəzi demokratik dəyərlərin üstündən xətt çəkilsə də, ölkə demokratik imicini qoruyub saxlaya bilib. Azərbaycana gəlincə, burada situasiya tamam fərqlidir. İqtidarın neft amilinə söykənib yeritdiyi siyasət ona uğur gətirir. İqtisadi vəziyyətin yüksək olması müxalifətin zəifləməsinə gətirib çıxarıb. Müxalifət əlbir olub, gürcü müxalifəti kimi, siyasi proseslərə hökm etmək məharətinə yiyələnə bilməyib. Son dövrlərdə müxalifətin sıraları da xeyli seyrəlib, onlar arasında çəkişmələr sürətlənib. Bu səbəblər ucbatından iqtidar öz hakimiyyətini qoruya bilib. Xalqın siyasi passivliyi də burada mühüm rol oynayır. Hər halda Azərbaycanda iqtisadi amillər həlledici rol oynayır. 11-13 il əvvəl Azərbaycanda müxalifətin qalib gələ bilməməsində xarici faktor da əsas rol oynamışdı. Həmin vaxt Qərbin yardımı müxalifətin xeyrinə olmadı. Demokratik müxalifəti o zaman Qərb dəstəkləmədi. Saakaşvili kimi münasibətləri qura biləcək, münasibətlərə körpü salacaq, Qərbin etimadını qazana biləcək lider olmadı. Bir çox siyasi amillər var idi ki, bu Azərbaycan müxalifətində yox idi".


Mixail Saakaşvili

**AĞ Partiya sədri Tural Abbaslı** 2005-ci ildən sonra Azərbaycan müxalifətinin hakimiyyət uğrunda mübarizəni dayandırdığını bildirdi: "2005-ci ildə parlament seçkilərindən sonra təşkil olunan 26 noyabr mitinqi müxalifətin hakimiyyət iddiasının sonu oldu. Həmin mitinqdən sonra müxalifət daha çox daxili intriqalara zaman ayırır. Hakimiyyət iddiası üçün birliklər yaradılmır, yaradılırsa, həmin birliklərdə səmimiyyət olmur. Xalq da artıq eyni adlardan, verilən vədlərdən doyub. Xalqın iştirak etmədiyi bir siyasi prosesdə isə, qalibiyyət ola bilməz. Proseslərin bu yerə çatmasında hakimiyyətin nə qədər günahı varsa, müxalifət də eyni dərəcədə günahkardır. Bu şəkildə davam edərsə, növbəti 12 ildə də Azərbaycan müxalifəti qonşu ölkələrdəki hakimiyyət dəyişikliklərini seyr etməli olacaq".

**T.Abbaslı gürcü müxalifətinin son mitinqinə də münasibət bildirdi:** "Hər mitinq əvvəlki mitinqlərdən çox olmalıdır, özündən sonra hansısa dəyişikliyin əsasını qoymalıdır. Gürcüstanda indiyə qədər keçirilən əksər mitinqlər öz siyasi nəticəsini göstərib. Ona görə də xalq o mitinqlərdə iştirak edirlər. Çünki uğur qazanacaqlarına inanırlar. 5 oktyabr mitinqi bunu bir daha göstərdi. Azərbaycanda isə bunu demək olmaz. Sentyabrdakı mitinqlər bunu göstərdi. 11 sentyabrdakı aksiyada verilən səhv qərar sonrakı mitinqlərin taleyini həll etdi. Azərbaycanda bəlkə də yeni başlayacaq siyasi proseslərin qarşısını aldı".

❑ **Cavanşir ABBASLI**

# Borçalı ziyalıları Gürcüstan seçkilərindəki namizədlərini açıqladılar



**Şahin Cəfərli:** "Samirə İsmayılovanın parlamentə üzv seçilməsini çox istərdim"



**Aslan İsmayılov:** "Kim Saakaşvilinin tərəfindədirsə, mən onu dəstəkləyirəm"

**Oktyabrın 8-də Gürcüstanda keçiriləcək parlament seçkilərində azərbaycanlı namizədlərin də mübarizəsi diqqəti cəlb edir. Keçirilən debatlarda aktivlik nümayiş etdirən, soydaşlarımızın hüquqlarını Gürcüstan parlamentində müdafiə etmək istəyənlər barədə daha öncəki saylarımızda məlumat vermişdik.**

*"Yeni Müsavat" seçkiyə sayılı saatlar qalmış əslən Borçalıdan olan ziyalılarımızdan azərbaycanlı namizədlər barədə fikirlərini öyrənib. Kim hansı namizədi dəstəkləyir?*

Əslən Borçalıdan olan **politoloq Şahin Cəfərli** bildirdi ki, azərbaycanlı namizədlər arasında ən diqqətçəkən fiqur Samirə İsmayılovadır. Müsahibimiz onun qalib gəlməsini və parlamentə üzv seçilməsini arzu edir: "Çünki bunun Gürcüstandakı soydaşlarımızın gələcəyi baxımından mühüm, uzunmüddətli təsirləri ola biləcəyini düşünürəm. Bilirsiniz ki, Samirə İsmayılova gəncdir. O, öz qələbəsi ilə Gürcüstandakı bütün azərbaycanlı yeniyetmələr və gənclər üçün pozitiv bir örnəyə çevriləcək. Soydaşlarımız görəcəklər ki, yaxşı təhsil almaqla, dövlət dilini öyrənməklə, yerli cəmiyyətə inteqrasiya olunmaqla Gürcüstan daxilində çox yaxşı karyera və gələcək qurmaq mümkündür. Bu, azərbaycanlı gənclərin ötən illərdə müşahidə olunan kütləvi miqrasiyasının azalması və soydaşlarımızın öz dədə-baba torpaqlarında qalması üçün stimul ola bilər. Digər tərəfdən, bilirsiniz ki, azərbaycanlılar Gürcüstandakı siyasi proseslərdə fəal iştirak etməyən apolitik, asosial bir kütlə olublar. Bu seçkilərdə azərbaycanlı namizədlərin sayının artması və onların seçki kampaniyasındakı aktivliyi həmvətənlərimizin tədricən siyasi proseslərə marağını artıracaq. Biz artıq bu prosesi müşahidə edirik". Ş.Cəfərli hesab edir ki, S.İsmayılovanın seçilməsi həm də azərbaycanlı xanımlar arasında fəallığın yaranmasına səbəb ola bilər və bu da çox önəmlidir. Politoloqun fikrincə, ümumən soydaşlarımızın Gürcüstan dövlətinə aidiyyət duyğusu hiss etməsi çox vacibdir.

**Vəkil Aslan İsmayılov** isə öncə xatırlatdı ki, 2 yaşından Gürcüstanın Qardabani şəhərində yaşayıb, orada Azərbaycan dilində orta məktəbi bitirib: "Yadımdadır ki, Mixail Saakaşvilidən əvvəl Qardabanidən Candar kəndinə getmək üçün hökmən silahlı dostlarım məni müşayiət edirdilər ki, yolda quldurların basqınına məruz qalmayım. Rusiyada qazanılan pulların hesabına soydaşlarımız hər küçədə silahlı şəxslər saxlayırdılar ki, gecələr basqın edib evləri talamasınlar. Rüşvətxorluq, məmur özbaşnalığı, oğurluq, quldurluq tüğyan edirdi. Bütün bunların kökünü qısa müddətdə Saakaşvili komandası kəsdi, keçmiş SSRİ-də ən kriminal ölkədən Avropa tipli bir dövlət qurdu. Həqiqətən inanılmaz inkişafa nail oldu. Heç bir təbii ehtiyatı olmayan Gürcüstanda bu göstəricilər ehtiyatlarla zəngin Vətənim Azərbaycandan yaxşı oldu. Bu gün Gürcüstan xarici investorlar üçün ən azad iqtisadiyyata malik ilk 10 ölkədən biridir. Saakaşvilini şəxsən 1990-cı ilin ortalarından tanısam da, o, hakimiyyətdə olduğu müddət daim onu və komandasını azərbaycanlılara layiq olduğu qayğının göstərilməməsindən, Gürcüstanda yaşayan ermənilərin vəzifələrdə daha çox təmsil olunmasından şikayətlənmişəm. Buna görə görüşlərdən birində Gürcüstanın Azərbaycandakı səfirinin xanım müavini məni millətçilikdə belə ittiham etdi. Birinci dəfədir bu barədə bildirirəm. Bir nəfər gürcü dilini səlis bilən işçim "VİZA" hüquq firmasından maaş alsa da, təxminən 4 il ancaq Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti ilə araşdırmalar aparırdı. Onun köməkliyi ilə iki ildə bir dəfə BMT və Avropa Şurasında Gürcüstandakı milli azlıqlar barədə Gürcüstan hakimiyyətinin hesabatı olanda "Tolerans" QHT adı ilə alternativ hesabat hazırlayırdıq. Saakaşvili hakimiyyətdə olduğu müddət göstərilən nöqsanlar tədricən həll olunmağa başlandı. Saakaşvilinin dönəmində azərbaycanlılar içərisində prezident müşaviri, nazir müavini, parlamentdə ekspertlər vardı. İndi isə barmaqla sayılacaq qədər azdır. Məhz Saakaşvili dövründə gənc azərbaycanlılar müxtəlif xətlərlə Avropa və ABŞ-da oxumağa göndərildilər".

**A.İsmayılov hesab edir ki, əgər M.Saakaşvilinin başçılıq etdiyi partiya hakimiyyətdə qalsaydı, soydaşlarımız bu gün tamam başqa Gürcüstanda yaşayacaqdılar**: "Artıq Gürcüstan Avropa birliyinə daxil olmuşdu, Avropaya vizasız rejim çoxdan tətbiq edilmişdi. Çökmüş Gürcüstanı ayaq üstünə qaldıran hakimiyyət indi daha fundamental iqtisadiyyat qurmuşdu. Bu günlərdə yenidən Gürcüstanda oldum. Tanıdığım şəxslərlə görüşlərdə bir daha əmin oldum ki, bizmesmen B.İvanişvilinin əl hakimiyyəti artıq sürətlə Gürcüstanı keçmişə qaytarır. Bunu görmək üçün sadəcə sərhədi keçəndə sərhədçilərin münasibətinə fikir vermək kifayətdir. Saakaşvili dövründə gülərüzlü sərhədçilər artıq yenə kobudluğa başlayıblar. "Gürcü arzusu" vətəndaşlara çox ciddi vədlər vermişdi. Əhali gözləyirdi ki, Saakaşvilinin dönəmində islahatlar aparılıb, oliqarx İvanişvili isə onlar üçün iş yerləri açacaq, güzəranları yüksələcək. Ancaq tam əksi oldu. Yeganə artan məmur maaşlarıdır. 2012-ci ilə qədər ölkədə kökü kəsilən oğurluq, korrupsiya faktlarının yenidən gündəmə gəlməsi "Gürcü arzusu"nun əhaliyə ən böyük "xidməti"dir. Saakaşvili dönəmində nümunəvi davranış göstərən, qanunlara tabe olan insanlar bu iqtidarın dönəmində yenidən yaşamaq üçün qanunsuz yollara əl atmağa başladılar.

Bugünkü hakimiyyətin parlament sədri David Usubaşvili və bir neçə naziri ilə 1996-cı ildə Budapeştdə Mərkəzi Avropa Universitetində oxusam da, onlarla xoş münasibətim olsa da sizi Mixail Saakaşvilinin başçılıq etdiyi, sıra nömrəsi 5 olan partiyaya səs verməyə çağırıram. Gürcüstan mənim ikinci Vətənimdir, orada mənim doğmalarım yaşayır və istədiyim ancaq güclü inkişaf etmiş Gürcüstan, orada yaşayan bütün vətəndaşların, o cümlədən həmvətənlərimin xoş günləridir".

**Vəkil bu səbəbdən də deyir ki, seçkidə onun üçün prioritet M.Saakaşvili faktorudur. Hansı azərbaycanlı namizəd onun tərəfindədirsə, müsahibimiz onun namizədliyinə üstünlük verir.**

❑ **Sevinc TELMANQIZI**



# Pulsuz pendir qorxusu...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Müəllimlər Gününü ellikcə qəzasız-bəlasız, "üzüağ" ötürə bildizmi? "Üç dostun, beş düşmənin" içində qürrə-qürrə gəzirsizmi siyahı üzrə yığdığınız pulların hesabına? Daha camaat sizə nə deyər xofu yoxdu ki, üzərinizdə? Əla, demək ki, xata sizdən uzaqdadır.**

Bu bayram qələbənizə kölgə salmaq istəməsəm də, günahın hər zaman öləndə olması məsələni unuda bilmirəm nəyə görəsə. Misal tam yerinə düşür. Çünki hər pul yığımında əziyyət çəkmənizdən, hər şeyi zorla çatdırmanızdan, bir sözlə, diri-diri ölmənizdən şikayətlənirsiz. Amma unudursuz ki, bu prosesin birbaşa katalizatoru özünüzsüz. Yəni hamınız yox, böyük əksəriyyətiniz, bu işdə canfəşanlıq edənləriniz.

Bəli, millət olaraq bizim içimizdə illər öncədən kök salan, qol-budaq atan və heç cür qurtula bilmədiyimiz qəribə əziklik var. Kim vəzifəsi, borcu olan bir işi layiqincə görürsə, dərhal əlimizi cibimizə atırıq. Adam bunu bizdən istədi-istəmədi, fərqi yoxdur. Canımıza sinmir, özümüzü borclu, əzilmiş kimi hiss edirik. Marağa şəhərin bir-birindən fərqli orta məktəblərindəki tanışlardan soruşdum: necə keçdi pul yığımı deyə. Məlum oldu ki, əksərində müəllimlər uşaqlardan, valideynlərdən pul-filan istəməyiblər. Bunlar özləri özlərinə belə bir vəzifə, görəv, iş veriblər. Evdə hətta bir həftəlik bazarlığın xərcini düzgün bölə bilməyən bəzi analar belə bir kütləvi pulyığma əməliyyatı təşkil ediblər, yığımın qədərini də özləri müəyyənləşdiriblər. Minimum 30, maksimum 50 manat... Səbəbi də çox sadədir? "Ayıb deyilmi, ildə bir dəfə olan şeydir də"... Təxminən belə bir məntiqsiz izahat.

Öncə sakit-sakit izah edirsən ki, ayıb-filan deyil. Təbrik etmək istəyən müəlliminə bir dəstə gül də ala bilər. İstəməyəni isə bu cür zorla məcbur etməzlər. Zor sözünü əbəs yerə demirəm, mən son bir həftədə məktəblərin qabağında nə dialoqlar eşitmişəm. Yekə-yekə analar, xalalar bir-birini, xüsusən də pul verməyənləri "o pul sənin heç bir günlük salon xərcin deyil, ərinin bir həftəlik benzini deyil" tipində üzdən-gözdən salırlar. Hələ imkan tapıb bir demokratiya dərsi də keçən olur, "sinfin birliyini pozmaq olmaz" deyə. Anlamırlar ki, müəllimə 250-300 manat pul yığıb vermək valideynin vəzifəsi deyil, heç kəs özünə belə bir vəzifə çıxarmamalıdır.

Mənsə hər dəfə olduğu kimi, eyni sualı verirəm: hesab edək ki, pul yığımı olmadı və müəllimə də təbrik edilmədi. Nə olacaq? Pis bir şey baş verəcək çocuqlarınız üçün? İddia edirsiz ki, müəllimə mənəvi terror edəcək uşaqlarınıza qarşı? O zaman şikayət edin, birbaşa Təhsil Nazirliyinə, "qaynar xətt"ləri var, bütün şikayətləri, anonim olmamaq şərtilə qəbul edirlər. Yox, bunu da etməyəcəksizsə, lütfən süni şəkildə şikayətlənməkdən vaz keçin.

Bir məqamı da deyim ki, bu, yarınma, mütləq hədiyyə, pulla təşəkkür etmə psixologiyası təkcə valideyn təbəqəsinə aid deyil. Həkimə qarşı da eyni davranış sərgilənir, jurnalistə qarşı da. Hesab edin ki, poliklinikaya xəstə aparmısız, həkim müayinə edib və siz çıxmalısınız. Böyük əksəriyyət çıxanda əlini həkimin xalatının cibinə basır. Halallıq olsun məntiqi ilə. Adamı ən çox yandıran da elə halallıq söhbəti olur. Həkim dövlət işindədir, məvacib alır, xəstəxana pulsuzdur... Amma biz yenə özümüzə əl qatmışıq, həkim səsini çıxarmadan hazırıq. Yanlış anlaşılmasın, dili ilə xəstədən, valideyndən pul tələb edənlərdən danışmıram. Sorğu-suz-sualsız, öz təşəbbüsü ilə bu tendensiyanı möhkəmləndirənlərdir mənim qıcıq obyektim.

Bizim başımıza gəlməyibmi? Şikayətçidir, gəlir, dərdini danışır, yazırıq. Növbəti gün və ya elə şikayətini deyən kimi, baxırsan ki, yerində qurcuxur. "Mənim ürəyimə sinmədi e, bir şirinlik olsun da" deyib, görürsən ki, pul verməyə qalxır. Anlada bilmirsən ki, şirinlik sənin probleminin həllidir, mənsə zatən bu şikayəti yazdığım üçün halal qonorarımı alacam. Qosqoca dayılar-əmilər, "ürəkləri sınmış", "sözləri yerə düşmüş", "pərt edilmiş" ədası ilə redaksiyanı tərk edirlər. Nədi-nədi, bunların əlləri ciblərində qalıb, bapbalaca bir jurnalist uşaq bunların sözünü yerə salıb, pulunu, hədiyyəsini götürməyib.

Deməyim odu ki, imam üçün ağlayanda... Bəli, heç kəs süddən çıxmış ağ qaşıq deyil. Əgər bu gün ölkənin bəzi sektorlarında rüşvətxorluq varsa, ayaq tutub yeriyirsə, hətta yüyürürsə, bunun bir səbəbkarı da elə özümüzük. "Pulsuz pendir siçan tələsində olur" məsəlini yeri gəldi-gəlmədi, hər yerdə istifadə etdiyimiz üçündür ki, hətta halal haqqımız olan xidmətləri, hüquqları da görəndə qurcuxuruq.

**Ən azı... Məktəb siçan tələsi deyil, təhsili də pendirlə müqayisə etməzlər. Uşağınızın qayğılarını həll edin, onları sevindirməyə çalışın. Müəllimləri maliyyələşdirmək sizin çəkməli olduğunuz yük deyil... Yükünüzü artırmayın...**

---

**"Suriya böhranı" ətrafında yeni situasiya yaranmağa başlayıb. Belə ki, bu böhran artıq bütün dünyanın əsas probleminə çevrilib. Üstəlik, Suriya ərazisi supergüclərin maraqlarının kəskin şəkildə toqquşduğu beynəlxalq poliqon statusu qazanıb.**

# Suriyada supergüclərin nüfuz savaşı

## Amerika və Rusiya ərəb ölkəsində "rus ruleti" oynayırlar; ölümcül atəş qaçılmazdır



Məsələ ondadır ki, "Suriya böhranı" supergüclərin maraqlarının düyünləndiyi və kələfin ucunun itdiyi məkandır. Burada iştirakçı aktyorlar eyni hədəfə qarşı mübarizə apardıqlarını iddia etsələr də, əslində bir-biri ilə savaşırlar. Yəni sözdə müttəfiq, əməldə isə barışmaz rəqibdirlər.

Türkiyənin Suriyaya girməsindən sonra isə bu qarışıq məkanda situasiya daha da qəlizləşib. Belə ki, Türkiyənin Suriyada bir müddət öncə başladığı və "Fırat qalxanı" adlandırdığı hərbi əməliyyatdan bu məkanın hərbi aktyorları qətiyyən məmnun deyillər. Və bu əməliyyatın durdurulması üçün əllərindən gələni edirlər.

Düzdür, Türkiyə Suriya ərazisinə özbaşına girməyib. Yəni bu hərbi məkanın əsas aktyorlarından razılıq alıb. Ancaq bu razılıq məcburiyyət qarşısında verilib.

Çünki rəsmi Ankaranın hərbi əməliyyatlar üçün seçdiyi zaman Türkiyəyə müqavimət imkanlarını sıfıra endirmişdi. Yəni rəsmi Ankaranın bu "hərbi qalaqurma"sı timinq *(zamanlama)* bacarığı da hesab oluna bilər.

Belə ki, "Fırat qalxanı" əməliyyatında qısa müddət öncə Türkiyədə hərbi çevrilişə cəhd edilmişdi. Və bu cəhdin ssenariləşdirilməsində ABŞ başda olmaqla, bəzi nəhəng dövlətlər də rəsmən ittiham edilirdi. Yəni ABŞ və Qərb Türkiyənin qarşısında "gözükölgəli" idi. Belə vəziyyətdə qəzəbli Türkiyənin Suriyaya girmək istəyinə etiraz etmək qarşılıqlı münasibətləri daha da gərginləşdirə bilərdi.

Eyni zamanda, rəsmi Ankara Rusiya ilə korlanmış münasibətlərini hərbi çevriliş cəhdindən dərhal sonra böyük sürətlə bərpa etmişdi. Rusiyaya da ABŞ və Qərblə münasibətləri gərgin olan Türkiyənin Suriyada yeni hərbi aktyora çevrilməsi sərf edirdi. Və qəliz manevrlər ustası olan Kreml Türkiyənin Suriyada ABŞ-la üz-üzə qala biləcəyini də nəzərə alaraq, həmin əməliyyata könülsüz də olsa, etiraz etməmişdi.

Yəni hər kəs öz çıxarlarını, itki ehtimallarını hesablamışdı. Ancaq ən böyük hesablamanı rəsmi Ankara yapmışdı.

Məsələ ondadır ki, hərbi çevriliş cəhdindən bir neçə saat öncə FETÖ-cü generallar Türkiyə-Suriya sərhədindəki hərbi hissələri daimi dislokasiya yerlərindən çıxartmışdılar. Yəni Türkiyənin sərhəd qapıları həmin bölgədəki terrorçu qruplaşmaların üzünə taybatay açılmışdı.

Hərbi çevrilişin qarşısı vaxtında alınmasaydı, Türkiyədə xaos yaranacaqdı. Ardınca isə, terrorçu qruplaşmalar heç bir müqavimətlə üzləşmədən Türkiyə ərazisinə girəcəkdilər. Yəni Türkiyə bir dövlət olaraq, dağılacaqdı. Və xaos məkanı olaraq da Suriya ilə bütünləşəcəkdi.

Maraqlıdır ki, rəsmi Ankara Türkiyə üçün hazırlanmış bu qorxunc ssenarini çözdü və onu pozmaq üçün Suriya ərazisinə girdi. Yəni rəsmi Ankara "Suriya böhranı"nın Türkiyə ərazisinə girməsinin qarşısını almaq üçün özü bu böhranın içərisinə doğru irəlilədi. Daha dəqiq desək, Türkiyə xaosun öz içərisinə girməsindənsə, özü xaosun içinə atılmağı üstün tutdu. Və bununla da ilk baxışdan ən doğru addımı atmış kimi görünür.

Ancaq bu, çox riskli addımdır. Və bu addım yaxın gələcəkdə digər hərbi aktyorlar kimi, Türkiyə üçün də ciddi təhlükələr törədə bilər. Çünki "Suriya bataqlığı"na girən dövlətin oradan necə çıxacağı və hətta çıxa bilib-bilməyəcəyi belə, tam aydın deyil.

Məsələ ondadır ki, Suriyadakı iştirakçı aktyorlar simvolik müttəfiqlər və real düşmənlərdir. Çünki onların hər birisi Suriyadakı silahlı (terrorçu) qruplaşmalardan birinə himayədarlıq edir.

Rusiya Əsəd rejimini dəstəkləyir. Və bu rejimin mövcudluğuna qarşı çıxan hər kəslə qarşıdurma vəziyyətindədir.

ABŞ nə qədər inkar etsə də, Ağ Evin İŞİD və PJD-ni himayə etdiyi heç kəsdə şübhə doğurmur. Əsəd rejiminin Suriya məkanından silinməsi üçün cəhdlər edir. Bu üzdən də Suriyada ABŞ-Rusiya qarşıdurması hər ötən gün daha da gərginləşir.

Türkiyə Azad Suriya Ordusunu (ASO) dəstəkləyir. Əsəd rejimi, İŞİD və PJD-yə qarşı cəbhə alıb. Bu üzdən də Türkiyənin həm Rusiya, həm də ABŞ və müttəfiqləri ilə maraqları kəskin şəkildə toqquşur.

Əlbəttə ki, İran, İsrail və bəzi Qərb dövlətlərini, eləcə də ərəb ölkələrini də nəzərə almaqla, bu siyahını daha da genişləndirmək olar. Ancaq Suriyadakı beynəlxalq qarşıdurma mühitini xarakterizə etmək üçün sadaladıqlarımız da yetərlidir.

Halbuki Suriyada ABŞ-ın elə ABŞ-ın özü ilə də qarşıdurma vəziyyətində olduğunu unutmaq olmaz. Belə ki, Türkiyənin "Fırat qalxanı" əməliyyatının başlanmasından bir müddət öncə ABŞ-ın "The New York Times" qəzeti olduqca müəmmalı manşet başlığı atmışdı: "Suriyada CİA Pentaqona qarşı savaşır". Və bu iddianın açılışı odur ki, CİA (bizim MKİ kimi tanıdığımız kəşfiyyat qurumu) Suriyada İŞİD-i himayə edir. Pentaqonun Suriyadakı görəvi isə terrorizmə qarşı mübarizə aparmaqdır.

**Göründüyü kimi, Suriyada "at izi, it izinə qarışıb". Hamı bir-biri ilə həm müttəfiq, həm də düşməndir. Sanki Suriyadakı hərbi aktyorlar bir-biriylə "rus ruleti" oynayırlar. Yəni çömbəlib, dövrələmə oturublar. Ortalıqda güllə darağında cəmisi bir patron olan naqan var. Və onlar növbə ilə naqanı götürüb, öz qafalarına dirəyərək, tətiyi çəkirlər. Naqandakı o bir patronun onlardan hansının qafasını dağıdacağı isə hələlik məlum deyil. Halbuki naqanın bir gün açılacağı da qətiyyən şübhə doğurmur.**

❑ Elçin XALİDBƏYLİ

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

**Ermənistan işğal elədiyi Azərbaycan ərazilərində təxribatçı əməllərini davam etdirir. Qısa fasilədən sonra işğalçı qüvvələrin torpaqlarımızda növbəti dəfə hərbi təlimlərə başlaması bir daha düşmənin Dağlıq Qarabağ məsələsinin sülh yolu həllində maraqlı və ya buna hazır olmadığına şübhə yeri saxlamır. Heç şübhəsiz, qarşı tərəf bu cür təxribatlarla vaxt udmağa, status-kvonu uzatmağa çalışır. Ancaq yaddan çıxarır ki, bununla bölgədə yeni müharibənin alovlanmasına və növbəti dəfə Azərbaycan tərəfindən cəzalanmasına zəmin hazırlayır.**





# Amerika və Rusiyadan Qarabağ etirafları - işğalçını kim ram edəcək?

## ABŞ dövlət katibinin və Putinin etibarlı şəxsinin bədbin bəyanatları müharibə riskinin artdığının anonsudur; Azərbaycan öz hərbiyyəsini gücləndirmək zorundadır; "Liderlər kompromisə hazır deyil" deyən Obama administrasiyası nədən 8 ildə prezidentlərin bircə görüşünü də təşkil eləmədi?..

Məsələ də ondadır ki, Azərbaycan işğalçı ölkənin bütün hərbi manevrlərini, o sırada hərbi texnikasının hərəkətini diqqətlə izləyir və müvafiq kontur-tədbirlər hazırlayır. Müdafiə Nazirlindəki son müşavirədən sonra verilən açıqlama da göstərdi ki, düşmənin nəinki Azərbaycan torpaqlarındakı, həm də Ermənistandakı hərbi xarakterli hərəkətləri və obyektləri ciddi nəzarətə və hədəfə götürülüb.

***

Şübhəsiz ki, Azərbaycana təcavüzkara bu dəfə daha güclü zərbə vurmaq üçün onun üzərində hərbi üstünlüyünü saxlamağın vacibliyini anlayır. Ərazisi işğal altında olan ölkə kimi ölkəmizin öz hərbi qüdrətini istənilən yolla artırmağa tam haqqı çatır və bunu edir də.

Son illər hərbi parkımızın yeni və daha müasir silahlarla zənginləşməsi də göstərir ki, Bakı İrəvan hərbi balansı nəinki öz xeyrinə dəyişməyə imkan verməyəcək, heç hərbi balans yaratmağa da qoymayacaq. Ermənistandakı "İsgəndər" raketləri ilə bağlı Azərbaycanın reaksiyası da göstərdi ki, işğalçı ölkənin arxayınlaşması üçün heç bir əsas yoxdur. Bunu əcnəbi siyasi və hərbi ekspertlər də etiraf edir.

***

"Azərbaycanda 120 kilometr məsafədə hədəfləri məhv edən İsrail raketləri artıq var". Bunu "Moskva-Bakı" portalına açıqlamasında tərəflər arasında hərbi qüvvələr balansını şərh edən rusiyalı hərbi ekspert Pavel Felgenhauer söyləyib (Axar.az). Onun sözlərinə görə, İsraillə yanaşı, Azərbaycan Çin və Belarusdan da yeni raketlər ala, ən önəmlisi, özü istehsalı qura bilər.

"İsrailin həmçinin orta mənzilli "Yerixon" raketləri var, amma mən indiyədək 300 kilometrdən uzaq məsafədəki hədəfləri məhv edən raketlərin kiməsə satıldığını görməmişəm. Bu, Vassenaar razılaşmasını poza bilərdi. Bu müqavilə sayəsində 300 kilometrdən uzaq məsafədəki hədəfləri məhv edən raketlərin satışı qadağan edilir. Üstəlik, israillilər bu işi görməkdən ötrü Vaşinqtonla razılaşmalıdırlar. Nəzəri olaraq İrandan da "Şahab" raketlərini almaq mümkündür. Buradan Azərbaycana silahları çatdırmaq asandır. Ən azından ümumi sərhədlər mövcuddur. Bu məsafədə hədəfləri məhv edəcək raketlər Çində də mövcuddur. Onlar isə İran raketlərindən daha müasirdir. Azərbaycanda hərbi sənaye kompleksi hələ sovet dövründən olub. Burada hərbi zavodlar və mütəxəssislər qalıblar. Bunların hamısından istifadə etmək olar. Bakı üçün ən tez yol birgə istehsal, yəni xarici texnologiyanın öz ərazisində yığılışıdır. Eyni yoldan Türkiyə də istifadə edir. Özbaşına nə isə yaratmaq baha başa gəlir. Bakı burada Ukrayna və ya İsraillə ümumi istehsala gedə bilər. İsrail artıq tez-tez başqa ölkələrə texnologiyalar verir" - analitik qeyd edib.

Yeri gəlmişkən, bu yaxınlarda Bakıda keçirilən "ADEX 2016" sərgisində Azərbaycan Müdafiə Sənayesi (MSN) Nazirliyinin istehsal etdiyi aviasiya bombaları nümayiş etdirilib. MSN müəssisələri tərəfindən istehsal olunan bombalar düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulub. Bunlar təyyarə və helikopterdən atılan bombalardır. Qəlpəli-fuqas aviasiya bombalarının ən kiçiyi 25, ən böyüyü isə 500 kq-dır.

Həmçinin bunlar sərbəst düşən və idarəolunan aviasiya bombalarıdır. Onların arasında 100 və 250 kiloqramlıq bombalarla yanaşı, betondələn aviasiya bombaları da var. Aviasiya bombalarının atılan hündürlükdən asılı olaraq dağıdıcı məsafəsi də dəyişir. Ən diqqət çəkən "QFAB-100S AB" qəlpəli-fuqaslı süzən aviasiya bombasıdır.

***

Təəssüf ki, işğalçı Ermənistanın destruktiv mövqeyi ucbatından Qarabağa danışıqları təzədən qeyri-müəyyən müddətə dalana girib və bölgədə silahlanma yarışı yeni impuls qazanıb. Belə görünür, bu il sülh nizamlanmasında ciddi dönüş olacağı haqda ən nikbin siyasi ekspertlərin proqnozları da artıq fiasko sayıla bilər. Onlardan biri də Rusiyadakı Siyasi Araşdırmalar İnstitutunun direktoru, prezident Vladimir Putinin səlahiyyətli şəxslərindən biri, Rusiya prezidenti yanında İctimai Şuranın üzvü, politoloq Sergey Markovdur.

"Azərbaycan güclü ordu yaradıb və aprel döyüşlərində də bu, özünü göstərdi. Azərbaycanın üzləşdiyi əsas problem Qarabağ münaqişəsidir. Bu il "Kazan formulu" əsasında Qarabağ münaqişəsinin həllində böyük irəliləyiş əldə oluna bilərdi. Torpaqların bir qisminin qaytarılması müqabilində Ermənistanın blokadası aradan qaldırıla bilərdi. Təəssüf ki, bu, mümkün olmadı". Bunu o, dünən Azərbaycan prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Azərbaycanın müstəqilliyinin 25-ci ildönümü münasibətilə təşkil etdiyi "Azərbaycanın qlobal və regional arenada rolu: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq konfransın açılışında çıxışı zamanı deyib.

Müharibə risklərinin artdığı mövcud vəziyyətə görə əsas məsuliyyət isə sözsüz ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri, məxsusən də Ermənistana güclü təsir imkanlarına malik Rusiyanın üzərindədir. Rusiya isə aprel döyüşlərindən sonra müəyyən diplomatik fəallıq göstərsə də, bunun davamını gətirmədi və Markovun proqnoz elədiyi kimi, ilinin sonunadək köçkünlərin bir qisminin öz yurdlarına qayıtması reallaşmadı.

***

Bu arada ABŞ dövlət katibi Con Kerrinin liderlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə hazır olmadığı barədə bəyanatı sülh danışıqları ətrafında duruma əlavə bədbin rəng qatdı. Bu bəyanat xüsusən də Bakıda qıcıq yaratdı.

"Kerrinin bəyanatı bizi təəccübləndirir və məyus edir". Bunu **Prezident Administrasiyası rəhbərinin müavini, Xarici ələqələr şöbəsinin müdiri Novruz Məmmədov** deyib (APA). Məmmədov bildirib ki, münaqişənin tənzimlənməsində iştirak edən superdövlətin dövlət katibinin hakimiyyətdən getmə, seçki ərəfəsində belə bir bəyanat verməsi təəccüb doğurur: "Bunun qəribə bir mənası var, sanki dünyaya bir mesajdır. Məhz Ermənistan münaqişənin tənzimlənməsi ilə bağlı danışıqlarda liderlərin münaqişənin həlinə hazır olmadığını iddia edir. Tutaq ki, tarixi Azərbaycan torpağı olan Qarabağla bağlı danışıqlarda fikir mübadiləsi aparılır. Azərbaycanın Dağlıq Qarabağ ətrafında olan və 760 minə qədər insanın məcburi köçkün həyatı yaşamasına səbəb olan 7 rayonunun 25 ildən artıq işğal altında qalmasını nə ilə izah etmək olar? Əgər Ermənistan bu 7 rayonu azad edəcəksə, buna bir hazırlıq lazım deyilmi? Bunun üçün isə əsas missiya ABŞ da daxil olmaqla, Minsk Qrupunun 3 üzvünə verilib. Ancaq hələ də bu sahədə çox böyük uğur görmək mümkün olmayıb".

**Prezidenti Administrasiyası rəhbərinin müavini bir daha Ermənistanın işğalçı dövlət olduğunu xatırladaraq deyib:** "Azərbaycan torpaqlarının azad edilməsi üçün ABŞ da BMT Təhlükəsizlik Şurasında 4 qətnamənin qəbuluna səs verib. Bununla bağlı bir çox beynəlxalq təşkilatlar da qətnamələr və qərarlar qəbul edilib. ATƏT-in Minsk Qrupuna üzv olan 3 dövlətin prezidentləri də status-kvo-nun dəyişməli olduğunu bəyan ediblər. Bütün bunları əsas götürüb, heç olmasa, Azərbaycanın Dağlıq Qarabağ ətrafında 7 rayonunun azad edilməsi ilə haqda bir cümlə deyə, bir mövqe bildirəydilər, sonra deyəydilər ki, liderlər münaqişənin həllinə hazır deyil. Ona görə də Azərbaycan Con Kerrinin bəyanatını qəbul etmir. İstərdik ki, bu bəyanata ABŞ-ın hansısa dövlət qurumu ətraflı, hamının başa düşəcəyi tərzdə aydınlıq gətirsin".

***

**Əslində buna indi lüzum da yoxdur. Çünki Obama administrasiyasının siyasi ömrünə cəmi 1-2 ay qalıb. Əfsus ki, Obamanın prezidentliyi dönəmində biz Ağ Evin Qarabağ konfliktinin həllinə ciddi şəkildə girişdiyinin, böyük diplomatik fəallığının şahidi olmadıq. Bu müddətdə Rusiya lideri dəfələrlə Əliyev-Sərkisyan görüşünü təşkil elədi, Obama isə bircə dəfə də Vaşinqtonda analoji təmas təşkil eləmədi - buna imkanlar yetərli ola-ola. Ümid qalır ABŞ-ın yeni administrasiyasına.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016



# Milli anomaliyanın dünyaya car çəkilməsinə stop

Samir SARI

**Dünən saytlarda elektron media ilə bağlı iki xəbər vardı, ikisi də maraqlı xəbər idi. Xəbərlərdən biri buralıydı, o biri başqa ölkədən gəlməydi. Birinci xəbərdə söhbət telekanalda bir verilişin bağlanmasının zərurətindən, belə bir tələbdən gedirdi, ikinci xəbər isə Türkiyədə fəaliyyət göstərən TV8-in yeni bir kanal açmasına dair idi.**

Bizim xəbərin qəhrəmanı deputat-rektor Aqiyə Naxçıvanlıdır. Xəbər verilirdi ki, o, parlamentin iclasında belə deyib: "Hansısa rayonda, kənddə anomal (yəqin ki, anormal -S.S.) hadisə baş verirsə, bunu dünyaya car çəkmək doğru deyil. Bu kimə lazımdır?! Bütün dünyada belə hadisələr olur. Mətbuat, televiziyalar yaxşını qoyub, harada sensasiya sayılan hadisə varsa, onu işıqlandırmağa can atır".

Xarici xəbərin qəhrəmanı ölkəmizdə də yaxşı tanınan (hətta deputat-rektordan daha yaxşı) Acun Ilicalıdır. Məlumata görə, TV8-dən sonra TV8,5 kanalı bu gündən yayıma başlayır və idman verilişləri yayacaq.

Göründüyü kimi, dünyaya "bir millət-iki dövlət" kimi təqdim etdiyimiz Türkiyə-Azərbaycan tandeminin birinci tayında elektron medianın sərhədlərini genişləndirirlər, ikincidə isə onu bir az da, türkün sözü, qısıtlamağa çalışırlar.

"Nədən böylədir" modunda düşünə-düşünə qeyd edim ki, Türkiyədə 500-ə yaxın telekanal var, bizdə isə hamısı bir yerdə 15 civarındadır.

Düzdür, deputatımız deməyib ki, ATV bağlansın, amma deyib ki, Xoşqədəmlə Zaurun verilişləri bağlanmalıdır, çünki onlar üçüncü abzasda yazılan şeyləri edirlər.

Belə baxanda "hansısa rayonda, kənddə anomal (yəqin ki, anormal) hadisə baş verirsə, bunu dünyaya car çəkmək" niyə doğru deyil ki? Car çəkəndə nə olacaq? Dünyaya səs salmış pozitiv reputasiyamız korlanacaq? Dünyanın başqa ölkələrinin hansısa rayonunda, kəndində baş verən anomal hadisə barədə dünyaya car çəkiləndə nə olur, həmin ölkələr dünyada rüsvay olurlar?

Ona qalsa dünyada öz zir-zibilini hamıdan gizlətməyə çalışan, milli mediasının ayağına tuşaq (çataq), qoluna qandal, ağzına skotç vuran, gözünə qara dəsmal bağlayan ölkələrdən ən yekəsi Şimali Koreyadır, amma yenə də bütün dünya o ölkədə baş verən "anomal"lıqlardan danışır.

Deputat deyir ki, "mətbuat, televiziyalar yaxşını qoyub, harada sensasiya sayılan hadisə varsa, onu işıqlandırmağa can atır". Hə, bax, bunu düz eləmirlər. Doğrudan da pambıq yığımının vüsət aldığı, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə şumlanmış sahələrin artdığı barədə ürəkaçan xəbərləri qoyub, məktəblərdəki real durumdan, yol, su, qaz, işıq problemlərindən və sair "sensasiya sayılan hadisə"lərdən yazmaq, süjet vermək düzgün deyil.

Bu kimə lazımdır axı? Məgər bu dünyaya maraqlıdır? Xeyr. Düzdür, "heyvandarlıq zərbəçi cəbhədir", "Torpaq deyir, əz məni" rubrikasında gedən verilişlər də dünya üçün maraqlı deyil, amma heç olmasa ölkə biabır olmur.

Əslində, Türkiyədə də deputatların bir çoxunun Acundan xoşu gəlmir, oturub-durub deyirlər, Acun tamaşaçılar hissi ilə oynayır, "duyğu sümürüsü yapır", "efiri mənasız laqqırtı ilə doldurur" deyirlər, amma "TV8 bağlanmalıdır", "Dərhal "O səs Türkiyə"nin yayımı dayandırılmalıdır" demirlər.

Onlar bu cür desələr də xeyri yoxdur, Acun İlıcalı prezident Ərdoğanla dostdur, onun kanalını bağlamazlar. Amma əgər Acun 15 iyulda ərzurumlu həmyerlisi Gülənin tərəfini tutsaydı, gedib Pensilvaniyada ondan müsahibə alsaydı, o zaman TV8-i Ərdoğanın əlindən Co Bayden də ala bilməzdi və bu kanal da düşərdi bağlanmış telekanalların siyahısına. Acun İlıcalı da bizim Vahid Mustafayevə məktub yazardı ki, kader ortağıyız, kardeş, mətin olalım.

Zaur və Xoşqədəm Baxşəliyevlərin çalışdığı ATV-nin elə bir problemi yoxdur, hökumətlə dostdur, ona görə də MTRŞ bu telekanalı qara siyahıya salmaz. Amma sözü gedən veriliş bağlana bilər. Onsuz da artıq neçənci dəfədir ki, Xoşqədəm xanımın apardığı verilişləri hərim-hərim hərləyirlər ki, tutub bağlasınlar.

**Bununla belə, bizimkilərin səs gələn hər şeyi tutub bağlamaq ehtirasının güclənməsi müəyyən dairələrdə əndişə doğurur, deyirlər, yaxşı, artıq neçə vaxtdır, efirlər şoumenlərin, manısların inhisarındadır, heç olmasa onları əsir-yesir etməyin, qoyun camaatı əyləndirsinlər.**

# "Azərbaycan xalqı bu müstəqilliyi heç də asanlıqla qazanmayıb"

## Müstəqilliyimizin 25 illiyinə həsr olunan konfrans keçirildi; "Heç kəsdə belə fikir yaranmamalıdır ki, Azərbaycan xalqı qəfil ayılıb, müstəqillik əldə etdi"

**Oktyabrın 7-də Beynəlxalq Mətbuat Mərkəzində "Azəri-Türk" Qadınlar Birliyi Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Azərbaycan dövlət müstəqilliyinin 25 illik həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması" mövzusunda konfrans keçirib.**

Musavat.com-un məlumatına görə, konfransda "Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Milli Məclisin deputatları - Qüdrət Həsənquliyev, Fazil Mustafa, Fəzail İbrahimli, sabiq deputat vəkili Sabir Rüstəmxanlı və digər şəxslər iştirak ediblər.

Konfrans Azərbaycan Respublikasının Dövlət himninin oxunması ilə başlayıb.

Daha sonra çıxış edən **"Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı** deyib ki, konfransın keçirilməsində məqsəd 25 illiyinin qeyd olunacağı Azərbaycan dövlətinin müstəqilliyi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasıdır:

"Oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının 25 ili tamam olacaq. Bu dövr ərzində Azərbaycan dövləti xarici siyasət sahəsində böyük və şərəfli inkişaf yolu keçib. Bu yolda Azərbaycan dövləti sosial-iqtisadi sahələrdə də inkişaf edib, müasirləşib, beynəlxalq tədbirlərin ünvanı olub".

**T.Rüstəmxanlı qeyd edib ki, Azərbaycanın müstəqilliyinin 25 illiyi ilə bağlı "Azəri-Türk" Qadınlar Birliyi tərəfindən oktyabr ayında iki böyük tədbir keçiriləcək:**

"Onlarda biri İstanbulda da keçiriləcək elmi konfransdır. Lakin biz istədik ki, ilk olaraq Azərbaycanda, Azərbaycanın müstəqilliyinə imzasını atmış aydınlarımızla, ziyalılarımızla bu məsələni bir daha gündəmə gətirək. 25 il müddətində müstəqilliyimiz bizə nə verdi, nələri qazanıb, nələri itirdiklərimizi müzakirə edək. Layihəmizin əsas amalı ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini Türkiyədə və bir çox xarici ölkələrdə təbliğ edək. Bugünkü tədbirimiz sadəcə olaraq başlanğıcdır".

Daha sonra çıxış üçün söz **deputat Fəzail İbrahimli**yə verilib. O bildirib ki, 1991-ci ilin 18 oktyabrı Azərbaycan tarixi üçün qürur mənbəyidir:

"Azərbaycanın müstəqillik tarixi hər bir azərbaycanlının qəlbində yaşamalıdır və yaşayır. Heç kəsdə belə fikir yaranmamalıdır ki, Azərbaycan xalqı qəfil ayılıb, müstəqillik əldə etdi. 70 il Sovet İmperiyasının əsarətində yaşamağımıza baxmayaraq, milli ruhu qoruyub saxlamaq asan məsələ deyil. Bunu hər millət bacara bilməz".

**Deputat vurğulayıb ki, bu gün Azərbaycanda müəyyən daxili problemləri qabardıb, müstəqilliyimizi təhlükə altına atmamalıyıq:** "Azərbaycan xalqı şəhid verərək müstəqilliyini bərpa edib. 1919-cu ildə Üzeyir Hacıbəyov müstəqilliyin 1 ili münasibəti ilə "Azərbaycan" qəzetində yazı yazaraq bildirib ki, bizim vəzifəmiz o qara günləri yaddan çıxarmamaqdır.



Borcumuz, tanrının bizə verdiyi bu müstəqilliyi şərəflə yaşatmaq, onun üçün hər an hazır olmalıyıq. Bu fikir bugünkü günümüzlə də çox yaxşı uyğunlaşır. Ona görə də o qara günləri yaddan çıxartmaq lazım deyil".

Tədbirdə çıxış edən **Azərbaycanın keçmiş təhsil naziri Firudin Cəlilov** da müstəqillik tarixinin əhəmiyyətindən danışıb. O bildirib ki, inqilab gec-tez "öz övladlarını yeyir".

Sabiq deputat S.Rüstəmxanlı isə müstəqillik uğrunda aparılan mübarizədən danışaraq qeyd edib ki, Azərbaycan xalqı bu müstəqilliyi heç də asan qazanmayıb.

Çıxış edən **deputat Qüdrət Həsənquliyev** 1991-ci ildə Ali Sovetdə keçirilən səsvermədə SSRİ-nin saxlanması ilə bağlı Azərbaycanda referendum keçirilməsinin əleyhinə səs verən 43 istiqlalçı deputatın "İstiqlal" ordeni ilə təltif olunmasını təklif edib. Q.Həsənquliyev bildirib ki, həmin adamlar qəhrəmanlardır:

"Mən "Demblok" üzvlərini çıxmaq şərti ilə, Azərbaycanın Müstəqillik Aktına imza atan 50 nəfəri o qədər qəhrəman saymıram. Əsl qəhrəmanlar SSRİ-nin Azərbaycanda saxlanılmasına qarşı səs verən 43 nəfərdir. Bu adamlar doğrudan da qəhrəmandırlar. Mən dəfələrlə bildirmişəm ki, həmin insanlara "İstiqlal" ordeni verilməlidir. Bu adamlar Azərbaycanda sağlam ruhda böyüyən insanlara da yaxşı örnəkdirlər. Onlar əsl vətənpərvərdirlər. Bilirsiniz ki, Azərbaycanda xalq hərəkatı Dağlıq Qarabağa görə başlayıb. Azərbaycanda Qarabağ hərəkatı yeni başlayanda Kamran Bağırov birinci katib idi. Ancaq o, Heydər Əliyev kimi güclü siyasi lider deyildi. Lakin Kamran Bağırovun gücü ona çatdı ki, o, tələbələrə, zavod və müəssisələrdə çalışanlara küçələrə çıxıb xalq hərəkatına başlamaq üçün yaşıl işıq yandırmışdı. Bütün bunları ona görə qeyd edirəm ki, bəzi insanlar Azərbaycan Xalq Hərəkatından çıxan bir illik hakimiyyətin niyə qısa ömür sürməsinin səbəbini bilməlidir".

Q.Həsənquliyev qeyd edib ki, Azərbaycan dövləti artıq güclüdür və daha torpaq itirməməlidir. Gənclik itirilmiş torpaqlarımızı da bərpa edib, bütöv Azərbaycanı qaytarmalıdır.

Sonra çıxış üçün söz **deputat Fazil Mustafa**ya verilib. O da müstəqilliyimiz barəsində tarixi faktlara toxunaraq, öz fikrini bildirib.




Tədbirdə iştirak edən **Bütöv Azərbaycan Hərəkatının rəhbəri Yasəmən Qaraqoyunlu** çıxış etmək üçün söz istəyib. Daha sonra o, iclasa AXCP sədri Əli Kərimli və Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbərin dəvət olunmamasını irad tutub:

"Əli Kərimli və İsa Qəmbər Azərbaycanda Milli Azadlıq Hərəkatının liderləri olublar. Ancaq çox təəssüf ki, bu gün onlar burada yoxdurlar".

Tədbiri təşkil edən "Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı Yasəmən Qaraqoyunlunun çıxışına cavab verərək bildirib ki, əksinə, Əli Kərimli heç vaxt Milli Azadlıq Hərəkatının liderlərindən olmayıb:

"Mən heç zaman sizin "qəhrəman" hesab etdiyiniz Əli Kərimlini lider hesab etməmişəm. Onları bu tədbirə də özüm dəvət etməmişəm. Çünki sırf mənim təşkil etdiyim tədbirdir. Onlar da gedib bu cür tədbirlər təşkil etsinlər, fikir bildirsinlər".

Daha sonra T.Rüstəmxanlı vurğulayıb ki, Əbülfəz Elçibəy Milli Azadlıq Hərəkatının liderlərindən biri və Azərbaycanın sabiq prezidenti olub:

"Heç kəs bunu dana bilməz. Sizin adını çəkdiyiniz Əli Kərimli isə ABŞ və digər xarici dövlətlərin tapşırıqlarını yerinə yetirir. Xaricdən pullar alır. Ancaq siz o adamı "qəhrəman" sayırsız. Bilirsiz, müxalifətdə olmaq o demək deyil ki, milli maraqları satasan. İnanın ki, sabah Azərbaycanın taleyi həll olunsa, həmin şəxslər ABŞ-ın tapşırıqlarını yerinə yetirəcək".

**T.Rüstəmxanlı söyləyib ki, ötən sərin 90-cı illərində Azərbaycanda xaos və silahlı üsyanlar baş qaldıranda, ölkə parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi:**

"Ancaq Heydər Əliyev bunun qarşısını aldı, imkan vermədi ki, Azərbaycan müstəqilliyini itirsin. İndi bütün bunlara görə Heydər Əliyevin haqqını necə tapdalamaq olar? Bu dövlətin müstəqilliyini qoruyub saxlayan məhz Heydər Əliyev olub".

❑ Əli RAİS

Fotolar müəllifindir

# Biləcəridə evləri plana düşən sakinlər yolu bağladı

## Sakinlər: "Maliyyə Nazirliyinin ayırdığı kompensasiyanı İcra Hakimiyyəti "yeyir"

**Oktyabrın 7-də Binəqədi rayonu, Biləcəri qəsəbəsi, "Motodrom" adlanan ərazidə yaşayan 100-ə yaxın sakin Bakı-Sumqayıt magistral yolunu bağlayaraq, nəqliyyatın hərəkətini məhdudlaşdırıb.**

Onlar yaşadıqları ərazinin yaxınlığında metronun "Avtovağzal" stansiyasının depo tuneli qazıldığı üçün yeraltı təkanlar nəticəsində evlərinə ziyan dəydiyini bildiriblər. Bundan əlavə, evləri plana düşən sakinlər onlara veriləcək olan kompensasiyanın azlığından da şikayətləniblər.

"Yen Müsavat" qəzetinin əməkdaşı adıçəkilən ərazidə olub və narazı sakinlərlə həmsöhbət olub.

Metro stansiyada aparılan tikinti zamanı qəsəbənin 63 evinə ziyan dəyib. Mənzillərin divarları çatlayıb, hasarlar aşıb. Sakinlər bildiriblər ki, ümumilikdə 70-ə yaxın evə zərər dəysə də, aidiyyəti qurumlar onların problemləri ilə maraqlanmayıb. Ərazinin söküntü planına düşməsi isə əhalidə narahatlıq doğurub. Onlara bildirilib ki, mənzillərinin hər kvadratmetri 500 manatdan hesablanacaq. Lakin sakinlər narazılıqlarını bildiriblər, onlara kompensasiyanın 1500 manatdan verilməsini tələb ediblər.

Problemini müxbirimizə danışan "Motodrom" sakinləri kompensasiyanın ədalətli hesablanmadığını dedilər: "Binəqədi Rayon İcra Hakimiyyəti nümayəndələrinin mənzillərinin hər kvadrametri üçün 500 manatdan kompensasiya verəcəyini bildirirlər. Biz anlaya bilmirik, icra hakimiyyəti nə zamandan kompensasiya təyin edən olub? Axı, bu iş Maliyyə Nazirliyinin səlahiyyətindədir. Bir həftədir ki, icra nümayəndələri qəsəbəyə gələrək 500 manatdan kompensasiya verəcəklərini deyiblər. Ancaq biz etirazımı bildirdik. Əgər haqsızlıq olunarsa, kompensasiyalarımız az verilərsə günümüz yollarda keçəcək".







Qəsəbə sakinləri Maliyyə Nazirliyinin onlara veriləcək kompensasiyanın 1500 manat hesabladığını dedilər: "Metro stansiyanın tikintisi zamanı evlərimizə zərər dəydi, divarlar çartladı. Bütün bunları nəzərə alsaq, kompensasiya çox azdır. Bizə verilən pulla heç yerdən ev ala bilmərik. Bundan əlavə biz bilirik ki, Maliyyə Nazirliyi plana düşən evlərin kvadratmetrini 1500 manatdan hesablayıb. Buna baxmayaraq, Binəqədi Rayon İcra Hakimiyyəti özbaşınalıq edir, camaatın kompensasiyanı "yeyirlər". Hökümətin bu qədər az məbləğdə kompensasiya verməsi mümkünsüzdür".

**Məsələ ilə bağlı ərazidə olan Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndələri ilə rəy almağa çalışsaq da, mümkün olmadı. İcra nümayəndələri qeyri-ciddi şəkildə qəsəbəyə gəzməyə gəldiklərini bildirdilər.**

❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**




# Seçki olsa müxalifət iştirak edəcəkmi...

## Partiyalar Konstitusiya dəyişikliklərinin qüvvəyə minməsini gözləyir

**26 sentyabrda keçirilən referendumun nəticələri qüvvəyə mindikdən sonra ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsinin gözlənildiyi barədə xəbərlər yayılmaqdadır. Bir sıra ciddi siyasi analitiklər və siyasətçilər də növbədənkənar seçkilərin keçirilmə ehtimalının yüksək olduğunu bildirirlər. Növbədənkənar parlament seçkiləri keçiriləcəyi halda müxalifətin həmin seçkilərdə iştirak edib-etməyəcəyi ilə maraqlandıq.**

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** bildirdi ki, referendumun nəticələri qüvvəyə mindikdən sonra ölkədə növbədənkənar prezident və parlament seçkilərinin keçiriləcəyi fikirlərinin nə dərəcədə doğrulacağı yaxın zamanlarda bəlli olacaq: "Hadisələri qabaqlayaraq qəti münasibət bildirmək fikrindən uzaq olsam da, hər halda əgər növbədənkənar parlament seçkiləri keçirilərsə müxalifətin də bu seçkilərə qatılacağı qənaətindəyəm".

**Müsavat Məclisinin sədri Nüşabə Sadıqlı** bildirdi ki, siyasi partiyaların başlıca vəzifələrindən birincisi hər zaman seçkilərdə iştirak etmək olmalıdır: "Seçkiləri boykot etməklə, sosial şəbəkələrdə və ya hansısa mətbuatda fikir bildirməklə kifayətlənmək siyasi institutların fəlsəfəsinə ziddir. Neqativlərə baxmayaraq, siyasi mübarizədən geri durmaq, fəaliyyətsiz qalmaq yox, insanlarımızın seçkilərə inamını bərpa etməklə proseslərdə iştirak etmək lazımdır və vacibdir.

Parlament seçkiləri ilə bağlı fikir bildirməyi hələlik məqbul hesab etmirəm, növbədənkənar seçkilər olsa zamanında Müsavat Partiyası olaraq mövqeyimizi bildirəcəyik".

**ADP sədrinin müavini Taliyət Əliyev** isə bildirdi ki, növbədənkənar parlament seçkilərindən daha çox prezident seçkilərinin keçirilmə ehtimalı böyükdür: "Hesab edirəm ki, mövcud parlamentdə hakimiyyət tərəfindən arzu olunmayan şəxslər varsa, onda növbədənkənar parlament seçkilərinin keçirilməsinin də şahidi olacağıq. Əks halda, hakimiyyətin buna gedəcəyini düşünmürəm. Çünki, parlament seçkilərində istər-istəməz ölkədə siyasi aktivlik artır, bu referendumdan sonra bu aktivliyin daha çox olacağını ehtimal etmək olar. Hakimiyyət də ölkədə siyasi aktivliyin artmasında maraqlı deyil. O ki, qaldı müxalifət partiyalarının növbədənkənar parlament seçkilərində iştirak edib-etməməsi məsələsinə, bu barədə qabaqcadan bir söz demək çətindir. Hesab edirəm ki, həmin situasiyanın diktəsi altında bu barədə qərar vermək olar. Təmsil etdiyim partiya sonuncu parlament seçkilərində və referendumda iştirak etmədi. Çünki, həmin seçkilərdə iştirak etməyin dövlət və xalq üçün heç bir əhəmiyyətinin olmayacağı qənaətindəydik. Əgər növbədənkənar parlament seçkiləri də keçiriləcəksə, müxalifətin həmin seçkilərdə xalqımızın və dövlətimizin maraqları baxımından iştirakı vacib olacaqsa, həmin seçkilərdə iştirak edilməlidir".

❑ **E.SEYİDAĞA**

# "Sovetski"də yeni köçürmə planı hazırlanıb

## 26 hektar ərazinin 90 faizinin yaşıllıq sahəsi olması nəzərdə tutulub

**Bakının "Sovetski" kimi tanınan məhəlləsində 2014-cü ildən etibarən başlanan köçürmə işləri bu gün də davam etdirilir. İndiyə qədər 3827 yaşayış və qeyri-yaşayış sahəsi bu ərazidən artıq köçürülüb...**

Musavat.com-un məlumatına görə, artıq boşaldılan 26 hektar park və yaşıllıq salınması üçün nəzərdə tutulan ərazi hasara alınıb. Oradan keçən avtomobil yolu kəsilsə də, piyadalar üçün xüsusi keçid qapadılmayıb. Plana uyğun olaraq 26 hektar ərazinin 90 faizinin yaşıllıq sahəsi olması nəzərdə tutulub. Lakin orada olan tikililər tamamilə sökülsə də ərazidə hər hansı tikinti və abadlıq işləri aparılmayıb. Söküntü aparılan ərazi boş sahə olaraq qalır.

Hələ avqust ayında **"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli** musavat.com-a bildirmişdi ki, orada görülən işlər birbaşa ölkə rəhbərliyinin nəzarəti əsasında aparılır. Bununla bağlı sərəncam da verilib: " Ərazidə ümumilikdə uzunluğu 6 kilometrdən çox olan 5 küçədə əsaslı şəkildə yenidənqurma işləri aparılacaq. Həmin küçələrə Balababa Məcidov, Abdulla Şaiq, Mirzəağa Əliyev, Füzuli küçəsinin davamı və Nəriman Nərimanov küçələri daxildir. Yenidənqurma işləri çərçivəsində küçələr həm genişləndiriləcək, həm də enli piyada səkiləri inşa ediləcək. Yenidən qurulacaq küçələrdə mühəndis kommunikasiyaları - su, məişət və yağış suları üçün kanalizasiya, işıq, qaz, rabitə xətlərinin dəyişdirilərək müasir tələblər səviyyəsində qurulması nəzərdə tutulur".





Lakin sakinlərin sözlərinə görə hələ ki, hər hansı bir işin aparılmasının şahidi olmayıblar. **Mirzağa Əliyev küçəsinin sakini Babək Kərimov** bildirdi ki, onlara da evlərinin söküləcəyi ilə bağlı məlumat veriblər: "Bu küçədə demək olar ki, hər kəsin mənzilini ölçüblər. Hamının söküntüdən xəbəri var. Kimin mənzili iridirsə, veriləcək olan kompensasiyadan razıdır. Onlar istəyirlər ki, söküntü daha tez başlasın. Kiminin ki, mənzili az kvadratlıdır, onlar narahatdırlar. Bizdə olan məlumata görə, Mirzağa Əliyev küçəsində söküntü işləri növbəti ildən başlayacaq".

Onu da qeyd edək ki, Mirzağa Əliyev küçəsindəki əksər mənzillər az kvadratlıdır. Eyni zamanda burada mənzillər o qədər yaxın yerləşib ki, hər hansı bir hadisə olduğu zaman müvafiq yardım avtomobilləri əraziyə girməyə çətinlik çəkirlər. Xatırladaq ki, ötən il Mirzağa Əliyev küçəsində yerləşən mənzillərin birində yanğın baş verdiyi zaman əraziyə yanğın söndürən maşınlar çox çətinliklə daxil olmuşdular. Nəticədə yanğın digər iki evə də keçmişdi...



Həmçinin sakinlərin sözlərinə görə ərazinin kommunal xətləri də yararlı vəziyyətdə deyil. Lakin bütün bunlara baxmayaraq, "Sovetski"nin söküntü aparılmayan hissələrində həyat əvvəlki illərdə olduğu kimi davam edir.

Köçürmə ilə bağlı APA TV-yə **Yasamal rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Köçürmə Komissiyanın sədri Səməd İslamov** da bildirib ki, "Sovetski"nin köçürülməsində fasilə yarandığı barədə fikirlər yanlışdır və proses mərhələli şəkildə davam etdirilir: "Köçürmə Komissiyası əvvəlki qaydada bu ərazidə yaşayan və evlərini satmaq arzusunda olan sakinləri hər həftənin ikinci və beşinci günləri qəbul edir. Satınalmaları həyata keçiririk. Yeni ərazinin köçürülməsi ilə əlaqədar görüləcək işləri üç mərhələyə bölmüşük. Bu üç mərhələ ümumilikdə 2060 yaşayış və qeyri-yaşayış sahəsini əhatə edir. Söhbət 17 hektar ərazidən söhbət gedir. Birinci mərhələdə "Nizami" metrosunun arxasından "Nərimanov" prospektinə qədər, Balababa Məcidov, Fuad İbrahimbəyov küçələri və Nərimanov prospektinə düşən ərazinin köçürülməsi nəzərdə tutulur. İkinci mərhələdə isə Nərimanov prospektindən yuxarı, İsmayıl Qutqaşınlı küçəsinə qədər olan hissə köçürüləcək. Üçüncü mərhələni isə şərti olaraq "Təzə Pir" mərhələsi adlandırırıq. Bu mərhələdə köçürülmə Murtuza Muxtarov və Nərimanov prospektini, Süleyman Tağızadə küçələrinədək olan ərazini əhatə edir".

❑ **Əli RAİS**
❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 222 (6543) 8 oktyabr 2016

# Azyaşlı qızları zorlayan əcnəbi baş məşqçi Azərbaycan millisindən qovulacaqmı...

## Elnur Əşrəfoğlu: "Məsələyə hüquqi qiymət verilənədək gözləyəcəyik"

**Cüdo üzrə Azərbaycan milli komandasının baş məşqçisi Peter Zayzenbaxer azyaşlı qızları zorlamaqda ittiham olunur. Bu barədə Avstriya mətbuatı məlumat yayıb. Məlumata görə, artıq bununla bağlı istintaq işi də açılıb.**

*56 yaşlı əcnəbi məşqçini qarşıda nə gözləyir? Cüdo Federasiyasının onunla bağlı qərarı bundan sonra necə olacaq?*



Avstriya mətbuatının yazdığına görə, əgər məşqçiyə qarşı ittihamlar sübut olunarsa, onu 10 illik həbs cəzası gözləyir.

**Hüquqşünas Müzəffər Baxışın** musavat.com-a verdiyi açıqlamaya görə, əcnəbi məşqçi cinayət əməllərini harada törədibsə, elə həmin ölkədə də buna hüquqi qiymət verilməlidir: "Əgər həmin ölkədə cinayət məsuliyyətinə cəlb edilməsə, azyaşlı uşaqları zorlamaq ittihamı ilə Azərbaycan Cinayət Məcəlləsinin 12.2-ci maddəsi imkan verir ki, o, bizim CM-nin 149.3.3 maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilsin və onun cəzalandırılması üçün lazımi tədbirlər görülsün".

**Hüquqşünasın sözlərinə görə, baş məşqçinin yenidən öz vəzifəsində fəaliyyət göstərə bilməsi ona təyin edilən cəzadan asılı olacaq:** "Əgər cəza təyin ediləndə onun məşqçilik fəaliyyəti ilə məşğul olması qadağan edilsə, müəyyən müddət ərzində bundan məhrum olacaq. Lakin həmin müddət bitdikdən sonra cinayət məsuliyyətinə cəlb olunduğu ölkədə bir məhdudlaşdırılma olmazsa, öz fəaliyyətinə davam edə bilər. Azərbaycanda da ona təyin edilən bu əməlinə görə maddənin sanksiyasında müəyyən peşə ilə məşğul olmağın qadağan edilməsi ilə bağlı cəza nəzərdə tutulmayıb. Yəni, həbsdən çıxandan sonra yenidən öz fəaliyyətini davam etdirə biləcək".

Onun yenidən millimizin baş məşqçisi kimi çalışması məsələsinə gəldikdə isə, **Cüdo Federasiyasının rəsmisi Elnur Əşrəfoğlu** mətbuata açıqlama verərək, bildirib ki, məsələyə hüquqi qiymət verilənədək gözləyəcəklər.

Onun sözlərinə görə, federasiya avstriyalı baş məşqçini sırf cüdo mütəxəssisi olduğu üçün bu posta təyin edib və onunla Rio Olimpiadasının sonunadək şərti anlaşıb: "Biz məhkəmənin nə ilə nəticələnəcəyini bilmirik və məsələyə hüquqi qiymət verilənədək gözləyəcəyik".

E.Əşrəfoğlu həmçinin bildirib ki, Peter Zayzenbaxer məhkəmə ifadəsində ona qarşı irəli sürülən ittihamları rədd edib və deyib ki, yaxın vaxtlarda keçiriləcək məhkəmə prosesi onun günahsız olduğunu göstərəcək.

Xatırladaq ki, P.Zayzenbaxer 2012-ci ildə millimizin baş məşqçisi olub, 2014-ci ildə vəzifəsindən kənarlaşdırılıb. 2015-ci ildə o, yenidən Azərbaycana dəvət olunub və milliyə baş məşqçi təyin edilib. Onun rəhbərliyi altında Azərbaycan komandası Rio Olimpiadasında 2 gümüş medal qazanıb.

Onun iki azyaşlı qıza seksual xarakterli hərəkətlər etdiyi iddia olunur. Məlumata görə, həmin qızlardan birinin polisə müraciətindən sonra bu barədə istintaq başlayıb. İstintaq müəyyən edib ki, avstriyalı baş məşqçi Vyananın idman klublarından birində çalışarkən bir neçə uşağı seksual zorakılığa məruz qoyub.

Onu da qeyd edək ki, Qərb dövlətlərində haqqında belə iddialar irəli sürülən şəxsi bir an belə, ölkənin milli komandasının başında saxlamazdılar. Reputasiyası ləkələnmiş belə bir şəxs dərhal millinin baş məşqçisi postundan qovulardı.

Hətta Qərb ölkələrində belə ittihamlarla üzləşmiş şəxslər iddiaların doğru olmadığını sübut etmək üçün özləri istefa verirlər. Günahsızlıqları sübut olunduğu halda, təzminat davası açırlar.

❑ **Xalidə GƏRAY**



## 5 il qabaq itkin düşən şəxs yol qəzasında ölübmüş

**Azərbaycanda 5 il bundan əvvəl itkin düşən şəxsin yol qəzasında öldüyü məlum olub. "Report"un Daxili İşlər Nazirliyinə (DİN) istinadən verdiyi məlumata görə, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində 2011-ci il aprelin 26-da Nərimanov rayonu ərazisində baş vermiş yol-nəqliyyat hadisəsi zamanı ölən şəxsin həmin il mayın 11-dən itkin düşmüş kimi axtarılan 61 yaşlı Məhərrəm Hüseynovun olması müəyyənləşib.**

## Ata 10 yaşlı oğlunun gözü qarşısında can verdi

**Quba-Xınalıq yolunda gecə saatlarında avtoqəza baş verib. Hadisə Quba-Xınalıq yolunun 55-ci km-də qeydə alınıb. 48 yaşlı Xınalıq kənd sakini Bağırov Məmmədqasım Xəlil oğlunun idarə etdiyi 10 JL 382 dövlət nömrə nişanlı NİVA markalı avtomobil yoldan çıxaraq dərəyə aşıb. Nəticədə sürücü Məmmədqasım Bağırov hadisə yerində keçinib. İlkin məlumata görə, sürücü avtomobili sərxoş vəziyyətdə idarə edib.**

60 metr hündürlükdən dərəyə aşan maşında M.Bağırovun 10 yaşlı oğlu Rəşad da olub. Hadisə barədə də qohumlarına məhz o xəbər verib.

Qəza yerindən çətinliklə çıxan azyaşlı səhər saat 6:00 radələrində kəndə çatıb. Yaxınlarının dediyinə görə, Rəşad Bağırov qəzada ciddi xəsarət almasa da, hadisədən sarsıntı keçirib. R.Bağırov hazırda evlərindədir.

## Bakıda ölü at əti satanlara hökm oxundu

**Bakı Ağır Cinayətlər Məhkəməsində qanunsuz ət satışı ilə məşğul olmaqda təqsirləndirilən Sərdar Şahverdiyev, Alıbəy Rzaxanov və Tamerlan Abdullayevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Musavat.com xəbər verir ki, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub. Sərdar Şahverdiyev 6 ay, Alıbəy Rzaxanov isə 4 ay müddətinə azadlıqdan məhrum edilib.

Satış işlərinə nəzarət edən Tamerlan Abdullayev də məhkəmə zalında həbs edilib. O da 4 ay müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, ittiham aktına əsasən, təqsirləndirilən şəxslər Bakıda qanunsuz ət satışı ilə məşğul olmaqda təqsirli bilinərək, polis əməkdaşları tərəfindən saxlanılıb. Onlar ölmüş və xəstə iribuynuzlu heyvanları, həmçinim atları kəsərək, satmaqda təqsirli bilinirlər. Bundan əlavə onlar spirtli içkiləri standartlara uyğun olmadan, qanunsuz yollarla hazırlamaqda təqsirləndirilirlər.

İttiham aktında qeyd edilir ki, Alıbəy Rzaxanov ət kəsimi müəssisəsinin sahibi olaraq, Sərdar Şahverdiyev isə həmin müəssisənin faktiki rəhbəri olaraq, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, istehlakçıları aldadıblar.

Təqsirləndirilən hər 3 şəxs ittiham aktında göstərilənlərlə özlərini təqsirli bilmədiklərini demişdilər.

❑ **İlkin MURADOV**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**

**Elan**

**Ağdaş rayon Yuxarı Ləki kənd sakini Mehdiyev Əlivəli Məhəmməd oğluna verilmiş JN-161 A torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**